# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Azərbaycanın ictimai-siyasi həyatında imzası olan Xanım



5

SƏS

№ 114 (7282)

3 iyul 2025-ci il.
Qiymәti 60 qәpik

## Tarixi qardaşlıq və etibarlı müttəfiqlik!



2

İlham Əliyev: "Biz Özbəkistan-Azərbaycan qardaşlığının gözəl binalarını inşa edirik"

# Ermənistan iqtisadiyyatı çökə bilər




8

### Yekaterinburq hadisələrinə paytaxt sakinlərinin BAXIŞI



7

### Şəhid ailələrinə və müharibə əlillərinə sosial dəstək



9

### Uşaqlar niyə real oyun oynamaq əvəzinə telefona qaçır?



13

### Diplomlu, lakin işsiz gənclərin sayının artması...



16

### Ətraf mühit naminə: polietilen paket yox, ekoçanta



8

# Tarixi qardaşlıq və etibarlı müttəfiqlik!

## *İlham Əliyev: "Biz Özbəkistan-Azərbaycan qardaşlığının gözəl binalarını inşa edirik"*



***Yeni reallıqlar yaradan Azərbaycan təkcə Cənubi Qafqazda deyil, o cümlədən Avrasiya məkanında mövqeyini möhkəmləndirir, beynəlxalq arenada yüksək imicə sahibdir. Azərbaycanın Özbəkistan, eləcə də digər Orta Asiya ölkələri ilə əməkdaşlığı ölkələrimizin və xalqlarımızın, eləcə də türk dünyasının inkişafında önəmli rol oynayır və müasir qlobal çağırışlar zəminində yüksələn xətlə inkişaf edir.***

Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev iyulun 2-də Azərbaycan Respublikasına dövlət səfəri iki ölkə arasında çoxəsrlik dostluq münasibətlərinin inkişafında tarixi hadisə olmaqla yanaşı, dövlətlərarası qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsinə öz töhfəsini verir. Səfər çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistan Prezidenti Şavkat Mirziyoyevlə təkbətək görüşü keçirilib.

İyulun 2-də Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev mətbuata bəyanatlarla çıxış ediblər. Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin iştirakı ilə Azərbaycan-Özbəkistan Ali Dövlətlərarası Şuranın ikinci iclası keçirilib. Prezidentlər iclasda çıxış ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev:

-Hörmətli Şavkat Miromonoviç, əziz Qardaşım, bir daha Azərbaycana xoş gəlmisiniz

**Şavkat Mirziyoyev:** *"Biz Azərbaycana məmnuniyyətlə, öz evimizə, yaxın qardaşlarımızın yanına gəldiyimiz kimi gəlirik"*

**İlham Əliyev:** *"Ölkələrimizi həm tarix, həm mədəniyyət, həm ortaq dil və etnik yaxınlıq birləşdirir. Bu, möhkəm bünövrədir"*



deyirəm. Sizi və nümayəndə heyətinin üzvlərini salamlayıram. Əminəm ki, Özbəkistan Prezidentinin dövlət səfəri ölkələrimiz arasında qardaşlıq münasibətlərinin inkişafında daha bir mühüm mərhələ olacaq. Biz dostuq, qardaşıq, Müttəfiqlik münasibətləri haqqında Müqavilənin imzalandığı andan artıq müttəfiqlərik. Keçən il Daşkənddə biz rəsmən müttəfiq olduq. Müttəfiqlik münasibətləri haqqında Müqavilə dövlətlərarası münasibətlərin ali formasıdır.

Bu gün Dövlətlərarası Şuranın ikinci iclası çərçivəsində biz hesabatları dinləyəcək, qəbul etdiyimiz qərarların yerinə yetirilməsi üzrə növbəti tapşırıqlar verəcək və minimum yaxın bir neçə ay müddətinə tədbirlər proqramını müəyyənləşdirəcəyik. Ölkələrimizi həm tarix, həm mədəniyyət, həm ortaq dil və etnik yaxınlıq birləşdirir. Bu, möhkəm bünövrədir. Biz Özbəkistan-Azərbaycan qardaşlığının gözəl binalarını inşa edirik. Ölkəmizə göstərdiyiniz diqqətə görə Sizə təşəkkür etmək istərdim.

Hökumət üzvləri və müxtəlif strukturların rəhbərləri səviyyəsində də müntəzəm təmaslar həyata keçirilir. Bu yaxınlarda Hökumətlərarası Komissiyanın növbəti iclası olub. Artıq dediyim kimi, bu gün nəticələri dinləyəcəyik. Əminəm ki, onlar prinsipcə bizi sevindirəcək. Həm də Sizinlə razılaşdığımız kimi və hökumətlərimizin üzvlərinə verdiyimiz tapşırıqlara əsasən, biz bütün qərarlara və onların yerinə yetirilməsinə nəzarət edirik.

Həmçinin qardaş Özbəkistanı tarixi hadisə - futbol üzrə Özbəkistan yığmasının dünya çempionatının final mərhələsinə çıxması münasibətilə təbrik etmək istərdim. Bu, Özbəkistanın dünyanın aparıcı idman dövlətləri sırasında olduğu Yay Olimpiya Oyunlarından sonra son dövrlərdə idmanda ikinci tarixi nailiyyətidir. Bu nailiyyət həm də çox böyük potensialdan - insan potensialından, gənclik potensialından və təbii ki, dövlətin və Prezidentin düzgün siyasətindən xəbər verir. Biz buna öz uğurumuz kimi sevinirik. Əminəm ki, siz orada, o cümlədən Azərbaycanı da təmsil edəcəksiniz.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev:

-Hörmətli İlham Heydər oğlu, əziz Qardaşım, çox sağ olun.

Həqiqətən də bu, gözlədiyimiz səfərdir. Biz Azərbaycana məmnuniyyətlə, öz evimizə, yaxın qardaşlarımızın yanına gəldiyimiz kimi gəlirik. Şəxsən öz adımdan, nümayəndə heyətimizin adından təyyarənin endiyi andan təkcə mənə deyil, həm də bütün nümayəndə heyətimizə göstərilən çox təntənəli qəbula görə minnətdaram. Mən buna görə ayrıca təşəkkür etmək istəyirəm.

Əlbəttə, son illər münasibətlərimiz indi Sizin də dediyiniz kimi, tamamilə başqa səviyyəyə yüksəlir. Bizim real uğurlarımız var. Sizin də qeyd etdiyiniz kimi, biz artıq müttəfiqik. Bu, artıq bütün mətləblərdən xəbər verir. Hökumətlərarası səviyyədə, müttəfiqlik diplomatiyasında bunlar onu göstərir ki, biz artıq yaxın qonşular, yaxın dostlarıq. Bütün razılaşmalarımız da yüksək səviyyədə olacaq, Sizinlə razılığa gəldiyimiz kimi, nəzarət olunacaq və həllini tapacaq.

***Ardı Səh. 3***

# Tarixi qardaşlıq və etibarlı müttəfiqlik!

*İlham Əliyev: "Biz Özbəkistan-Azərbaycan qardaşlığının gözəl binalarını inşa edirik"*

Əvvəli Səh. 2

Biz iki yaxın xalqıq və tarixdə ortaq tərəflərimiz, ruhən, əxlaq, dünyaya baxış nöqteyi-nəzərindən çoxlu ümumi cəhətimiz var, dilimiz birdir, mədəniyyətimiz birdir, bir çox məsələni həll edirik. Bu gün məhdud dairədə tariximizi çox xatırladıq. Əlbəttə, çox şey əldən verilib. Amma biz Sizinlə onların yerini doldururuq. Biz bu gün göstəriş verəcəyik, onların yerini dolduracağıq və nəzarətə götürdüyümüz bütün məsələlər mütləq yerinə yetiriləcək.

Əlbəttə, demək istəyirəm ki, dünən tarixdə ilk parlamentlərarası forum uğurla keçirildi. Mənə məruzə etdilər, sizin və bizim deputatlar danışdılar. Bu da münasibətlərin artıq başqa fərqli səviyyəsidir. Hökumətlərarası Komissiya çox yaxşı səviyyədə keçdi. İki sədr görüşür, bir-birini çox yaxşı başa düşürlər. Mənə çox xoşdur ki, onların real nəticələri var. Son vaxtlar Təhlükəsizlik şuralarının görüşləri oldu, bir yol xəritəsi imzalandı. Bu da çox məsələdən xəbər verir.

İlham Heydər oğlu, mən də Sizi təbrik etmək istəyirəm - Azərbaycanın minifutbol komandası dünya çempionudur. Böyük futbola bir addım qaldığını gördük və həqiqətən də sevindik.

Ali Dövlətlərarası Şuranın ikinci iclası çərçivəsində Hökumətlərarası Komissiyanın həmsədrləri - Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov, Özbəkistanın investisiya, sənaye və ticarət naziri Laziz Kudratov Azərbaycan və Özbəkistan prezidentlərinin tapşırıqlarına uyğun olaraq həyata keçirilən layihələr barədə məlumat verdilər.

Sonra nəqliyyat, energetika, mədəniyyət nazirləri Azərbaycan-Özbəkistan strateji müttəfiqlik əlaqələrinə uyğun olaraq öz sahələri üzrə məruzələrlə çıxış etdilər. Dövlət başçıları tərəfindən mövcud layihələrin icrası, əməkdaşlığımızın inkişafı baxımından yeni perspektiv layihələrin müəyyən edilməsi ilə bağlı tapşırıqlar verildi.





Daha sonra Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti İlham Əliyevin və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin iştirakı ilə mübadiləsi mərasimi olub. Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Respublikasının və Özbəkistan Respublikasının Ali Dövlətlərarası Şurasının ikinci iclasının Qərarını imzaladılar.

Prezident İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev bu ölkənin Azərbaycandakı səfirliyinin Bakıda yeni binasının açılışında iştirak ediblər. Dövlət başçıları Özbəkistan səfirliyinin yeni binasının açılışını bildirən rəmzi lenti kəsdilər.

Prezidentlər İlham Əliyev və Şavkat Mirziyoyev səfirliyin binasının infrastrukturu ilə tanış oldular, burada diplomatlar üçün yaradılmış şəraitə baxdılar. Müasir tələblərə cavab verən yeni kompleks iki qardaş ölkə arasında çoxtərəfli strateji tərəfdaşlıq münasibətlərinin və müttəfiqliyin gələcək inkişafına yönəlib. Bina ilə tanışlıqdan sonra Prezidentlər İlham Əliyev və Şavkat Mirziyoyev səfirliyin Fəxri qonaqlar kitabına ürək sözlərini yazdılar.

Dünən həmçinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev iyulun 2-də Bakıda "Özbəkistan" parkının təməlini qoyublar. "Özbəkistan" parkı böyükmiqyaslı mədəni-rekreasiya layihəsidir. Burada Özbəkistanın, o cümlədən Daşkənd, Səmərqənd, Buxara, Xivə və Kokand regionlarının zəngin tarixini, memarlığını və mədəniyyətini əks etdirəcək nadir mühit yaradılacaq. Sahəsi 5 hektar olacaq park Özbəkistanın xəritəsi formasında salınacaq. Burada muzey, kinoteatr, amfiteatr, qüllə, Özbəkistanın milli mətbəx nümunələrinin təqdim olunacağı restoran və kafelər, ticarət zonası, suvenir və hədiyyələr mağazaları, zoopark, mehmanxana da fəaliyyət göstərəcək. Parkın əsas obyektləri Buxara, Səmərqənd və Xivədəki memarlıq nümunələri olacaq.



Qeyd edək ki, "Bakı Ağ Şəhər"də salınacaq bu park Azərbaycan və Özbəkistan dövlətləri və xalqları arasında tarixən mövcud olan qardaşlığın, dostluğun rəmzidir. Bu parkın salınması ilə xalqlarımızın mədəni əlaqələri daha da möhkəmlənəcək. Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev "Bakı Ağ Şəhər"də olublar.

Əlbəttə ki, Azərbaycanın xarici siyasətində ikitərəfli və çoxtərəfli çərçivədə qarşılıqlı tərəfdaşlıq çərçivəsində qurduğu mövcud münasibətlər böyük etimada əsaslanır. Dövlətimizin bu istiqamətdə həyata keçirdiyi siyasət Azərbaycanın milli maraqlarına uyğun olaraq reallaşır. Beynəlxalq aləmdə qazandığı nüfuzu və dünya dövlətləri ilə münasibətləri ötən müddət ərzində siyasi, iqtisadi, enerji, mədəni və digər sahələrdə dinamik şəkildə inkişaf edib və səmərəli əməkdaşlıq daha da yüksəlib. Eləcə də, iki dost ölkə - Azərbaycan və Özbəkistan arasında qarşılıqlı hörmət və etimad üzərində qurulmuş əlaqələr inkişaf edib və səmərəli əməkdaşlıq daha da yüksəlib. Dövlət başçılarının qarşılıqlı səfərləri bu əlaqələrin möhkəmlənməsində müstəsna rola malikdir. Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana məlum səfəri çərçivəsində strateji əhəmiyyət daşıyan "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə"nin imzalanması dövlətlərarası fəaliyyətin möhkəmləndirilməsində yeni səhifənin açılması demək idi. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, "Müttəfiqlik münasibətlərinə dair müqavilə iki ölkənin imzalaya biləcəyi ali səviyyədə beynəlxalq sənəddir. Biz bu gün Daşkənddə həqiqətən də münasibətlərimizin yeni fəslini deyil, kitabını yazırıq". Azərbaycan və Özbəkistanın müttəfiq olması təkcə tarixi dostluq bağlarından deyil, həm də dövlətlərin bugünkü geostrateji mövqeyinin, sahib olduğu təbii ehtiyatların göstəricisidir.



## UĞURLU ƏMƏKDAŞLIQ ÜÇÜN MÖHKƏM TƏMƏLƏ MALİK HÜQUQ-MÜQAVİLƏ BAZASI

Eyni kökə malik, ortaq tarixi, dini və mədəniyyəti bölüşən hər iki xalq arasındakı əlaqələr qədim dövrləri əhatə edir.

Ardı Səh. 4

Əvvəli Səh. 3

# Tarixi qardaşlıq və etibarlı müttəfiqlik!

*İlham Əliyev: "Biz Özbəkistan-Azərbaycan qardaşlığının gözəl binalarını inşa edirik"*

Uzun illərin sınağından çıxaraq bugünkü səviyyəyə gəlib çatan ənənəvi dostluq və qardaşlıq əlaqələri iki ölkə arasında hərtərəfli və strateji tərəfdaşlıq münasibətlərinə yüksəlib. Ticari-iqtisadi münasibətlər ikitərəfli əməkdaşlığın prioritet istiqamətlərindən biridir. Özbəkistan və Azərbaycan investisiya sahəsində əməkdaşlığın inkişaf etdirilməsində müəyyən uğurlar əldə etmişdir. Hər iki ölkənin nəqliyyat-tranzit potensialı böyükdür və bu sahədə əlverişli infrastruktur yaradılıb. Mərkəzi Asiyadan Xəzər dənizinə, daha sonra Qafqaz vasitəsilə Qara dəniz və Aralıq dənizi limanlarına gedən nəqliyyat marşrutları xüsusi aktuallıq kəsb edir. Həyata keçirilən layihələr, tədbirlər nəticəsində əməkdaşlığın yeni sahələri müəyyən edilib.

Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana səfəri çərçivəsində imzalanan sənədlər gələcək əməkdaşlıqda yeni yollar açıb və uğurlu əməkdaşlıq üçün möhkəm təmələ malik hüquq-müqavilə bazasının olması əməkdaşlıq münasibətlərinin möhkəmləndirilməsində mühüm rol oynayır. Daşkənddə müxtəlif istiqamətlər üzrə əməkdaşlıq sənədlərinin imzalanması dövlətlərarası münasibətlərin inkişafında, iqtisadi münasibətlərdə, investisiya, ticarət imkanlarının genişlənməsində mühüm əhəmiyyət kəsb etmiş oldu.









Azərbaycanın suverenliyinin bərpa olunması işində Özbəkistanın və özbək xalqının dəstəyini də qeyd etməliyik. Füzulidə Özbəkistan Prezidentinin və xalqının hədiyyəsi olan məktəbin açılışı işğaldan azad oluna Füzuliyə töhfədir. Yüksək keyfiyyətlə həyata keçirilən məktəb 960 şagird yerlikdir və üç hektar ərazidə inşa edilən məktəb binası iki mərtəbə və zirzəmidən ibarətdir. Məktəbdə 40 sinif otağı, 6 laboratoriya, 2 informatika otağı, 5 funksional tədris otağı, 500 yerlik akt zalı, idman zalı, 320 yerlik yeməkxana, kitabxana var. Məktəbin inşası ölkələrimiz arasında həmrəyliyin, dostluğun, qardaşlığın rəmzidir. Göründüyü kimi, Azərbaycan-Özbəkistan əlaqələri yeni dövrün reallıqlarına uyğun olaraq inkişafdadır. İki ölkə arasında bu vaxta qədər imzalanmış sənədlər, dövlət başçılarının qarşılıqlı səfərləri, bu səfərlər çərçivəsində aparılan müzakirələr, imzalanan sənədlər hərtərəfli və strateji tərəfdaşlığın dolğun ifadəsidir.

## ”İKİ MÜSTƏQİL, GÜCLÜ, SUVEREN, NÜFUZLU DÖVLƏT RƏSMİ MÜTTƏFİQ OLDU”

Tarixə söykənən Azərbaycan-Özbəkistan əlaqələri bu gün yeni dövrün reallıqlarına uyğun olaraq sürətlə inkişaf etdirilir. Özbəkistan Cənubi Qafqaz regionunda əsas tərəfdaş kimi qəbul etdiyi Azərbaycanla əməkdaşlığın dərinləşməsinə xüsusi əhəmiyyət verir. Azərbaycan-Özbəkistan münasibətləri Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda bərqərar olan sabitliyin və davamlı inkişafın təmin edilməsində də mühüm rol oynayır. İki ölkə arasında bu vaxtadək imzalanmış çoxsaylı sənəd, o cümlədən Strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın inkişafına dair Bəyannamə bu əməkdaşlıq üçün möhkəm hüquqi baza yaradıb. ”İki qardaş xalq, iki müstəqil, güclü, suveren, nüfuzlu dövlət rəsmi müttəfiq oldu”, - deyə Azərbaycan Prezidenti bildirib.

”Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə Özbəkistan Respublikasının Ekologiya, Ətraf Mühitin Mühafizəsi və İqlim Dəyişikliyi Nazirliyi yanında Turizm Komitəsi arasında 2024-2026-cı illər üzrə turizm sahəsində Fəaliyyət Planı” ”Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Özbəkistan Respublikasının Mədəniyyət Nazirliyi arasında 2024-2026-cı illər üçün mədəni-humanitar əməkdaşlıq üzrə Yol xəritəsi”, ”Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Özbəkistan Respublikasının Məktəbəqədər və Ümumi Təhsil Nazirliyi arasında məktəbəqədər və ümumi təhsil sahəsində əməkdaşlıq haqqında Protokol”u, ”Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Özbəkistan Respublikasının Ali təhsil, Elm və İnnovasiyalar Nazirliyi arasında peşə təhsili, orta ixtisas, ali təhsil və elm sahəsində əməkdaşlıq haqqında Protokol”u, ”Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Özbəkistan Respublikasının Ədliyyə Nazirliyi arasında 2024-2026-cı illər üzrə Əməkdaşlıq Proqramı” və digər sənədlər iki dövlət arasında uğurlu əməkdaşlıq üçün möhkəm təmələ malik hüquq-müqavilə bazasına təkandır.

## ”REGİONLARIMIZDA MÜSBƏT PROSESLƏR DAŞKƏND İLƏ BAKI ARASINDA SƏMƏRƏLİ ƏMƏKDAŞLIQDAN ASILIDIR”

Azərbaycanın Özbəkistan, eləcə də digər Orta Asiya ölkələri ilə gündən-günə daha da möhkəmlənən əməkdaşlığı həm ölkələrimizin və xalqlarımızın, həm də bütün türk dünyasının inkişafına əhəmiyyətli töhfələr verməkdədir. Bu gün Öbəkistan təkcə regionda deyil, həm də dünya miqyasında yüksək siyasi nüfuza malik olan ölkəyə çevrilib.

Ticari-iqtisadi münasibətlər ikitərəfli əməkdaşlığın prioritet istiqamətlərindən biridir. Bu sahədə əməkdaşlıq azad ticarət rejimində həyata keçirilir və iqtisadiyyatın müxtəlif sahələrini əhatə edir. Özbəkistan və Azərbaycan investisiya sahəsində əməkdaşlığın inkişaf etdirilməsində müəyyən uğurlar əldə etmişdir. Hər iki ölkənin nəqliyyat-tranzit potensialı böyükdür və bu sahədə əlverişli infrastruktur yaradılıb. Bu mənada, Mərkəzi Asiyadan Xəzər dənizinə, daha sonra Qafqaz vasitəsilə Qara dəniz və Aralıq dənizi limanlarına gedən nəqliyyat marşrutları xüsusi aktuallıq kəsb edir. Özbəkistan-Azərbaycan birgə biznes forumları, eləcə də iqtisadi sahədə həyata keçirilən digər tədbirlər sayəsində əməkdaşlığın yeni sahələri müəyyən edilmiş və bir sıra uğurlar qazanılmışdır. ”Regionlarımızda müsbət proseslər Daşkənd ilə Bakı arasında səmərəli əməkdaşlıqdan asılıdır” - deyən Prezident bildirib ki, bu gün Mərkəzi Asiya, Cənubi Qafqaz, Xəzər regionları vahid geosiyasi regiona çevrilir və regionlarımızda müsbət proseslər Özbəkistan ilə Azərbaycan arasında səmərəli əməkdaşlıqdan asılıdır. Tarixə söykənən Azərbaycan-Özbəkistan əlaqələri bu gün yeni dövrün reallıqlarına uyğun olaraq sürətlə inkişaf etdirilir. İki ölkə arasında bu vaxtadək imzalanmış 160-dan çox sənəd, o cümlədən Strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın inkişafına dair Bəyannamə bu əməkdaşlıq üçün möhkəm hüquqi baza yaradıb. Azərbaycanın Özbəkistan, eləcə də digər Orta Asiya ölkələri ilə gündən-günə daha da möhkəmlənən əməkdaşlığı həm ölkələrimizin və xalqlarımızın, həm də bütün türk dünyasının inkişafına əhəmiyyətli töhfələr verməkdədir.

Özbəkistan Prezidentinin Azərbaycana səfəri gələcəkdə əməkdaşlığın daha da inkişaf etdirilməsi, dostluq və tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsində öz sözünü deyəcəkdir. Bütün bunlar iki dövlət arasında uğurlu əməkdaşlıq üçün möhkəm təmələ malik hüquq-müqavilə bazasına təkandır.

**Nəzakət ƏLƏDDİNQIZI**



# Azərbaycanın ictimai-siyasi həyatında imzası olan Xanım

## *3 iyul Leyla xanım Əliyevanın doğum günüdür*

***Azərbaycan qadını tarixin müxtəlif dövrlərində gözəlliyi, gücü, əzmkarlığı və müdrikliyi ilə seçilərək, dövlətin və ictimai həyatın bir çox sahələrində sözünü demiş, özünəməxsus bir qalereya yaratmağı bacarmışdır. Bu qalereyada keçdiyi ömür yolunun günləri, ayları, illəri, hətta saat və dəqiqələri belə rəngarəng boyalarla tarixiləşmişdi. Yaşadığı cəmiyyətin ayrılmaz hissəsinə çevrilən Azərbaycan xanımları zəhmət və bacarıqları ilə dünyaya öz naxışlarını həkk edə bilmişlər. Ulu Öndər Heydər Əliyevin Azərbaycan qadını ilə bağlı fikirlərini xatırlatmaq yerinə düşərdi: "Azərbaycan xalqı həmişə qadına, onun cəmiyyətin həyatında oynadığı rola, tutduğu yüksək mövqeyə böyük hörmətlə yanaşmışdır. Xalqın ən əziz, qiymətli və müqəddəs hesab etdiyi vətən, torpaq, dil anlayışları ana adı ilə bərabər tutulmuşdur.***

Qadın adına göstərilən dərin ehtiram, sonsuz ana məhəbbəti söz və sənət abidələrimizdə öz parlaq təcəssümünü tapmışdır. Ədəbiyyatımızın və mədəniyyətimizin görkəmli nümayəndələri öz əsərlərində Azərbaycan qadınının mərdliyini, gözəlliyini, mənəvi saflığını vəsf etmişlər". Bu müdrik ifadələrin müəllifinin - Ulu Öndər Heydər Əliyevin ailəsində, şəcərəsində dünyaya göz açan və tərbiyə alan ictimai xadim, şairə, 2007-ci ildən Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri, 2007-ci ildən "Baku" jurnalının təsisçisi və baş redaktoru, 2011-ci ildən Heydər Əliyev Fondunun vitse-prezidenti, İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun mədəniyyətlərarası dialoqunun baş koordinatoru, Rusiyadakı Azərbaycanlı Gənclər Təşkilatının (AMOR) sədri, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurası üzvü, Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq ictimai birliyinin (IDEA) təsisçisi və sədri kimi vəzifələri icra edən Leyla Əliyevanın keçdiyi ömür yoluna nəzər salıb, icimai fəaliyyətini əks etdirən bəzi məqamları diqqətə çəkəcəyik. Bu təsadüfi deyildi. Belə ki, bu gün 3 iyul tarixi onun doğum günüdür. Məsuliyyətli və şərəf gətirən əməlləri ilə çox gənc yaşlarından Leyla Əliyeva ilə seçildi. Leyla xanımın yetişdiyi mühit qısa bir zamanda onun uğurlar qazanmasına səbəb oldu. Onun tərcümeyi-halına nəzər salsaq bunun şahidi olaraq. Belə ki, Leyla Əliyeva orta məktəbi bitirdikdən sonra Avropa Biznes Məktəbinə (ESB) daxil olub. İsveçrə və Böyük Britaniyada təhsil aldıqdan sonra 2006-2008-ci illərdə Rusiyada Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda politologiya fakültəsində dünya siyasəti üzrə magistr təhsili alıb. Tələbəlik illərindən başlayaraq Leyla xanım Əliyeva ictimai fəaliyyət ilə məşğul olub. Cavabdehlik məsuliyyəti: ata, ana, vətən qarşısında olan müqəddəs borcun yerinə yetirilməsi, reallaşması. Təbii ki, müqəddəs borc və vəzifələrin yerinə yetirilməsində ailədə, cəmiyyətdə insanın necə formalaşması önəmlidir.

### "HƏYATIMIZI NƏİNKİ SAĞLAM, HƏM DƏ MARAQLI VƏ RƏNGARƏNG EDƏN NƏ VARSA, HAMISININ QORUNUB-SAXLANMASINA BİRGƏ TÖHFƏ VERMƏLİYİK"

Həyata keçirdiyi layihələrin hər birində böyük ideyalar dayanır. Leyla Əliyeva IDEA İctimai Birliyinin sədri olaraq təbiətin qorunması istiqamətində bir sıra layihələrə imza atıb. İDEA ətraf mühit kampaniyası regionda ətraf mühit məsələləri ilə məşğul olan ən böyük təşkilatdır. Bu kampaniya çərçivəsində BMT İnkişaf Proqramı ilə saziş imzalanıb, Qəbələdə gənc ekoloqlar üçün beynəlxalq düşərgə keçirilib. Müasir dövrümüzdə ekologiya və ətraf mühitin qorunması vacib məsələlərdən olduğundan, ekoloji problemlərin nəticələri diqqətdədir. Leyla xanım Əliyevanın, müsahibələrinin birində dediyi kimi, biz planetimizə görə məsuliyyət hiss etməli və bioloji müxtəlifliyin, həyatımızı nəinki sağlam, həm də maraqlı və rəngarəng edən nə varsa, hamısının qorunub- saxlanmasına birgə töhfə verməliyik.

"Hər bir insan təbiəti sevməli və ona qayğı göstərməlidir", - deyir Leyla Əliyeva. Təbiəti sevməməyin mümkün olmadığı qənaətindədir: "İnsan və təbiət malik olduğumuz ən dəyərli nemətlərdir".

Belə prinsiplə ekolji mühitin qorunmasına çalışaraq kifayət qədər layihələrin müəllifinə çevrilib. Bu, "Bir planet - bir gələcək" devizini bir daha təsdiq edir. İDEA Azərbaycanda "Böyük Qafqaz beşliyi" deyilən, yox olmaq təhlükəsi ilə üzləşən beş heyvan növünü müəyyən edib. "Biz məhv olmaq təhlükəsi ilə üzləşən heyvanların yox olmasının qarşısını almağa çalışırıq", - deyərək ovçuluğun bütün dünyada mövcudluğunu dilə gətirib: "Bu, qəbul ediləndir və bəzən hətta faydalıdır. Lakin adları "Qırmızı kitab"a daxil olan heyvanlar öldürülməməlidir, onlar qorunmalıdır. Bunun üçün biz fəal təbliğat işi aparırıq, izah edirik, danışırıq. Ən başlıcası bu haqda düşünməkdir. Ceyranların reproduksiyası ilə bağlı bizim layihələrimiz olub. Mənim üçün ən vacib layihələrdən biri də Qafqaz bəbirinin qorunub saxlanmasıdır".

### SAĞLAMLIĞA VƏ SAĞLAM HƏYAT TƏRZİNƏ BÖYÜK DİQQƏT

Rusiyanın azərbaycanlı gənclərinin təşkilatlanmasında Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (RAGB) xüsusi rolu var. RAGT yarandığı gündən özünü müasir cəmiyyətin işgüzar və lazımlı strukturu kimi təqdim edib və Azərbaycanın məxsus olduğu dəyərlər Rusiyada nümayiş olunub. Rusiyanın bir sıra şəhərlərində azərbaycanlı gənclər klubları fəaliyyətdədir. Belə ki, Moskvada, Sankt-Peterburqda, Arxangelsk, Tver, İvanov, Yekaterinburq və digər regionlarda yerləşən təşkilatlar gənclərin həyatının bütün istiqamətlərini əhatə edir. Təhsil, idmanla yanaşı, RAGT sağlamlığa və sağlam həyat tərzinə də böyük diqqət ayırır. "Qanının milləti yoxdur" aksiyası çərçivəsində qurum könüllüləri ehtiyacı olan bütün şəxslərə təmənnasız qan veriblər. RAGT, həmçinin, "Sağlamlığına əmin ol - xəstəliyə "YOX" de" aksiyasının təşkilatçısıdır. Gördüyü işlər və həyata keçirilən layihələr nəticəsində RAGT-ın fəaliyyəti və onun rəhbəri Leyla Əliyevanın təşkilatçılıq istedadı yüksək qiymətləndirilir.

### HƏQİQƏTLƏRİN DÜNYAYA ÇATDIRILMASINDA VASİTƏÇİ VƏ ÖTÜRÜCÜ

Azərbaycanın milli-mənəvi dəyərlərini təbliğ etmək, Azərbaycanın ədalətli mövqeyini, xalqımızın qəhrəmanlıq tarixini, onun coğrafi-ərazisini tanıtmaq baxımından həyata keçirdiyi layihələr həmişə yüksək qiymətləndirilib. Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə yardımçı olan nümayəndəlik Azərbaycan həqiqətlərini dünyaya çatdırılmasında bir vasitəçi və ötürücü oldu. "Xocalıya ədalət" kampaniyası çərçivəsində dünya ölkələrində soyqırımına həsr olunmuş silsilə tədbirləri reallaşdırdı. Leyla xanım Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət" rep üslubunda yazılmış mahnı Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında bir vasitə oldu. Bu gün onun təşəbbüsü ilə Koreya dilində Xocalı soyqırımı haqqında sayt fəaliyyət göstərir. "Xocalıya ədalət!" beynəlxalq təbliğat və məlumatlandırma kampaniyası çərçivəsində görülmüş işlər nəticəsində dünyanın bir sıra ölkələrində və ABŞ-ın ştatlarında Xocalı qətliamı soyqırımı kimi tanınıb. Eyni zamanda, faciə qurbanlarının xatirəsinə abidələr ucaldılıb və müxtəlif tədbirlər keçirilib. 2018-ci ildə Türkiyənin İstanbul şəhərinin Bağçalar rayonunda böyük ərazini əhatə edən Azərbaycan Dostluq Parkı açılmış və burada Xocalı soyqırımı abidəsi ucaldılmışdır. "Xocalıya ədalət!" kampaniyası çərçivəsində görülən işlər Leyla Əliyevanın əsl vətənpərvərlik nümunəsinin göstəricisidir.

Leyla xanımın gördüyü böyük işlər diqqətdən kənarda qalmayıb. 2011-ci ilin iyulunda Azərbaycanla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif olunub. 2011-ci ilin noyabrında Nyu-Yorkda humanitar aksiyalarda fəal iştirakına görə, "Key to life" fəxri mükafatına layiq görülüb. 22 noyabr 2011-ci ildə BMT-nin sertifikatını və xüsusi vəsiqəsini alıb. 2013-cü ildə Ətraf Mühitin Mühafizəsi VII Beynəlxalq Layihə Olimpiadası (İNEPO-Avrasiya) Təşkilat Komitəsinin idarə heyəti tərəfindən "Ekoloji Mühitin Qorunmasına Görə" xüsusi Beynəlxalq Şərəf Mükafatı ilə mükafatlandırılıb. Həmin il Leyla Əliyeva III dərəcəli "Knyaginya Olqa" ordeni və "Volqoqrad vilayəti qarşısında xidmətlərə görə" medalı ilə təltif olunub. Bu mükafatların sayı kifayət qədərdir. Hər biri də əməli fəaliyyətin qiymətidir.

### "UŞAQLAR VALİDEYNLƏRİNƏ İLK NÖVBƏDƏ HÖRMƏT ETSİNLƏR, ONLARDAN QORXMASINLAR"

"Mənim üçün övladlarım və ailəm hər şeydən vacibdir", - deyir Leyla Əliyeva. Aldığı dərsi öz övladlarına ötürməyi diqqətdə saxlayır: "Mən övladlarıma valideynlərimin mənə verdiklərini vermək istəyirəm. İstəyirəm ki, onlar daim məhəbbət və qayğı içində böyüsünlər. Bu, ən vacibidir. Dünyanın müxtəlif ölkələrinə saysız-hesabsız səfərlər etməli oluram. Bu zaman övladlarımı da özümlə aparıram. Ona görə də darıxmıram. Vaxtı isə tapmaq mümkündür. Əsas odur ki, hamı sağlam olsun".

Müsahibələrin birində ona ünvanlanan "Uşaqlıqdan öyrədilməsi zəruri olan tərbiyənin və təhsilin əsasları hansılardır?" sualına gəlincə isə Leyla Əliyeva belə cavablandırıb: "Mənim üçün olduqca vacibdir ki, uşaqlar valideynlərinə ilk növbədə hörmət etsinlər, onlardan qorxmasınlar. Buna görə də uşaqlar nəyisə düz etməyəndə onlara izah etməyə çalışıram. Həmişə seçim ixtiyarı verirəm. Hesab edirəm ki, onlara kifayət qədər çox azadlıq vermək lazımdır. Fikrimcə, anadan olandan insana doğrunu və yanlışı anlama qabiliyyəti Allah tərəfindən verilib. Bəzən valideynlər uşaqları qorumaq üçün onları həddən artıq himayə edirlər, məhdudiyyətlər və qadağalar qoyurlar. Mən onlara daha çox azadlıq verməyə çalışıram, xüsusən də onlar oğlan olduqları üçün. Qoy onlar müstəqil, sərbəst və güclü olsunlar".

### "RƏSM ÇƏKMƏYƏ BAŞLADIQDA İSƏ BU İŞDƏN ƏL ÇƏKMƏK, SADƏCƏ MÜMKÜN OLMUR"

İctimai fəaliyyəti ilə nümunəyə çevrilən, zərif qəlb, zərif hisslərlə böyük əməllərə imza atmaq daxili aləminin zənginliyinin ifadəsi olmaqla yanaşı, istedadlı ziyalı olduğunu da biruzə verir. Əlbəttə ki, əməl və istedad vətənə sevgi ilə köklənmiş hisslərin vəhdətində daha mükəmməl bir şəkildə özünü ortaya qoymuş olur. Fəal sosial və ictimai fəaliyyəti ilə yanaşı, yaradıcılıq sahəsində də geniş coğrafi məkanda tanınan Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva qısa bir zaman məsafəsində yaşıdlarına örnək olaraq öz isminin ətrafında ən gözəl ifadələri cəm edərək cəmiyyət üçün nə qədər faydalı olan işlərin müəllifi olduğunu göstərə bilib. Leyla Əliyevanın fəaliyyətindən söz açarkən əlbəttə ki. onun yaradıcılıq dünyasına də diqqət yetirilməlidir. Leyla Əliyeva rəssamlıq, rejissorluq kimi sahələrlə yanaşı, şeirlər də yazır. "Həqiqətən də rəsm çəkmək böyük həzz deməkdir. Çünki bu iş insanı sakitləşdirir - nəticə isə uğurlu ola da bilər, olmaya da. Mən bəzən yarım il heç nə çəkməyə, lakin ay ərzində beşaltı rəsm əsəri ortaya qoya bilərəm. Rəsm çəkməyə başladıqda isə bu işdən əl çəkmək, sadəcə mümkün olmur, başqa bir işlə məşğul olmaq çox çətindir. Yəqin ki, bu işlə məşğul olan hər kəs eyni hissləri keçirir. Bir sözlə, bu, böyük bir həzz deməkdir. Ancaq uğurlu alınmırsa, onda ilham pərisini gözləmək lazım gəlir", - deyir Leyla Əliyeva. Onun "Sanki bir alovsan" şeirlər toplusu Türkiyənin nüfuzlu "BENGÜ" yayınları brendi ilə oxuculara təqdim olunan "Azərbaycan ədəbiyyatı"nın seçilən nəşrləri sırasına daxildir.

Ulu Öndər Heydər Əliyev kimi müdrik Şəxsiyyətin ailəsində böyüyən və bu nəslin təmsilçisi olan Leyla xanım öz əməli fəaliyyəti ilə, əlbəttə ki, seçilməli, prinsipial mövqeyini ortaya qoymalı idi. Müsahibələrinin birində ona verilən "Heydər Əliyev həyatınızda sizə ən çox kömək olan hansı məsləhəti vermişdi", - sualına "Mən indi başa düşürəm ki, nə qədər böyük bir İnsana yaxın olmuşam və nə qədər böyük bir İnsanla söhbətlərim olub", - deyə cavab vermişdi. "Hətta Onunla beş dəqiqə söhbət edənlər belə Ondan çox qiymətli dərs ala bilirdilər", - deyən Leyla xanım bildirib ki, Onu hər gün görürdüm: "Bu, heç nə ilə müqayisə olunmayacaq böyük təcrübə idi. Ən təəccüblüsü də bu idi. O, heç vaxt sənin nə etməli olduğunu demirdi, istəyirdi ki, sən həmişə özün qərar qəbul edəsən". Təbii ki, bu fikirlər bir daha göstərir ki, Leyla xanımın həyat məktəbinin təməli doğulduğu mühitdə qoyulub.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Müharibənin üç qalibi

*Regionda uzunmüddətli və davamlı sülh hələ çox uzaqdadır*



***Donald Tramp bildirib ki, o, İranın uranın zənginləşdirilməsi üzrə nüvə proqramını məhv edib və Tehranın nüvə silahı yaratmaq imkanını illərlə gecikdirib. ABŞ administrasiyası aydınlaşdırıb ki, İranda rejim dəyişikliyi onun ani planlarının bir hissəsi deyil. Vaşinqton atəşkəsə səbəb olan zərbələrinin yüksək effektivliyi ilə fəxr edir. Bundan əlavə, vurğulanır ki, Amerikanın zərbələrinin yüksək dağıdıcı gücü tapşırığı yerinə yetirilmiş hesab etmək üçün kifayət idi və bu da öz növbəsində ABŞ Ordusunun xarici ərazidə uzunmüddətli münaqişəyə cəlb olunmasına imkan vermədi. Və nəhayət, indiki uğurlu zərbənin ABŞ-a əfqan müxalifətinin təzyiqi altında amerikalıların təşviş içində Kabili tərk etdiyi imic fəlakətinin nəticələrini aradan qaldırmaq imkanı verəcəyi bildirilir.***

İsrail öz zərbələrini öz ətrafındakı məkanın son dərəcə düşmən qüvvələrdən: Həmas, Hizbullah, Suriyanın sərhəd bölgələri və indi də İrandan təmizlənməsinin qalibiyyətli davamı hesab edir. Düşmənin hava hücumundan müdafiəsini sıxışdıran İsrail aviasiyası ballistik raketlərin istehsalı və aviasiya ilə əlaqəli obyektlərə müqavimət göstərmədən zərbələr endirib. Bundan əlavə, 24 nüvə alimi və bir neçə əsas general həlak olub. İranda 1000-dən çox insan həlak olub, 4400-dən çox insan yaralanıb. İsrail 29 nəfəri itirib, 1200-dən çox insan yaralanıb. Tehran İranın Qətərdəki Amerika hərbi bazasına raket hücumundan dərhal sonra amerikalıların atəşkəs təklif etməsindən qürur duyur. Bununla belə, bəzi mənbələr iddia edir ki, İran amerikalıları öz bazalarına gözlənilən zərbələr barədə əvvəlcədən xəbərdar edib, ona görə də 19 raketin hamısı ələ keçirilib və nə Qətərə, nə də ABŞ aviabazasına zərər vurmayıb. Üstəlik, ABŞ dərhal Tehranın "üzünü xilas etməli" ehtiyacını anladığı üçün cavab verməyəcəyini bildirib.

ABŞ mediasında İranın müharibədən əvvəl gördüyü ehtiyat tədbirləri ilə bağlı məlumatlar maraq doğurur - onun ən qiymətli sərvətlərindən bəziləri xaricə köçürülüb. İsrail enerji infrastrukturunu hədəfə almağa başlayandan sonra İran böyük miqdarda saxlanan xam nefti Asiyaya ötürməyə başlayıb. İyunun 22-nə olan məlumata görə, İranın əsas neft ixrac nöqtəsi olan Xarq adasında saxlanılan xam neftin miqdarı azalıb, Sinqapur və Çin yaxınlığında saxlanılan İran neftinin həcmi isə artıb. Xaricə ötürülən təxminən 5 milyon barel neftin o dövrdə mövcud olan neft qiymətləri ilə təxminən 375 milyon dollar dəyərində idi.

Eyni mənbələr, İranın təhlükəsizlik məqsədilə ən azı dörd mülki təyyarə ilə Omanın paytaxtı Maskata uçduğunu bildirib. Təyyarələrdən biri prezidentə məxsus Airbus A340-dır və uçuş izləyiciləri iyunun 18-də Maskatda eniş etdiyini göstərir. Ərəb rəsmiləri təyyarələrin sərnişinsiz olduğunu öyrənəndə təəccübləniblər. Onlar bildiriblər ki, təyyarələrdə nağd pul və digər sərvətlər olub, iranlılara sanksiyalara görə onları boşaltmağa icazə verilməyib. Təyyarələrin özləri də yüksək vəzifəli məmurlar üçün ehtiyat resurs kimi dəyərli idi.

Bəzi ekspertlər əmindirlər ki, İran qalan yeraltı obyektlərindən və uran ehtiyatlarından istifadə edərək nüvə proqramını bərpa edə bilər. MAQATE-nin rəhbəri Rafael Grossi deyib ki, agentlik 60%-ə qədər zənginləşdirilmiş 400 kiloqramdan çox urana nəzarəti itirib. Agentlik materialın hücumlardan bir qədər əvvəl köçürülə biləcəyini istisna etmir. İndi də ölkə küçələrində şadlıq içində olan İran xalqı qələbəni qeyd edir və öz liderlərinin müdrikliyini tərifləyir!

İran prezidenti Məsud Pezeşkian milli şadlıq şəraitində körfəz ölkələri ilə qopma ehtimalını minimuma endirməyə çalışıb. O, Qətər əmirinə deyib ki, İranın raket hücumu "İran İslam Respublikası ilə onun dost, qardaş qonşusu Qətər arasında qarşıdurma kimi şərh edilməməlidir". 12 günlük müharibə regionun fundamental problemlərini həll etməyib. Oktyabrın 7-də HƏMAS-ın İsrailə hücumu ilə pozulan İsrail və Səudiyyə Ərəbistanı arasında imzalanan İbrahim razılaşması hələ də yenilənmir. Və belə razılaşmalar olmadan davamlı sülh mümkün deyil. Səudiyyəlilər Qəzzada aydın siyasi həll istəyirlər. İsrail bu həlli öz yolu ilə görür. İrandan sonra İsrail hərbçilərinin diqqəti bura yönələcək.

Körfəz ölkələri bir daha gördülər ki, Benyamin Netanyahu regional təhlükəsizlik məsələlərinə müstəsna olaraq öz milli maraqları prizmasından baxır. Və bu maraqlar üçün riskləri öz qavrayışı. Hansı ki, bu, təbii ki, etibarı artırmır, lakin regional büdcələrin hərbiləşdirilməsində kəskin artım vəd edir. ABŞ-da isə, düzünü desək, güclü və uzunmüddətli sülhün bərqərar olması üçün işlənib hazırlanmış yol xəritəsi yoxdur. Hər şey çox kortəbii, situasiyalıdır və buna görə də gözlənilməzdir...



## İsrailin İranla müharibəsi: gələcək üçün dərslər

2025-ci ilin iyun ayı dünya siyasətində fövqəladə hadisələr silsiləsi ayı kimi tarixə düşəcək: İsrail və İran arasında 12 günlük müharibə, Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumu, Kalqaridə G7 sammiti, NATO-nun Haaqa sammiti. Təbii ki, dünya mediası bu hadisələrə reaksiya və şərhlərlə doludur. Amma bu qaynayan informasiya axınında beynəlxalq münasibətlərin mənzərəsinin formalaşmasının perspektivləri, Yaxın Şərqdə baş verənlərdən və Şərqi Avropada baş verənlərdən dünya ictimaiyyətinin hansı dərsləri götürməli olduğu barədə praktiki olaraq heç bir fikir yoxdur.

Əvvəla, təəccüblüdür ki, Qərb analitikləri və siyasətçiləri baş verənləri sırf mövcud və ya gələcək qüvvələr balansı paradiqmasında nəzərdən keçirirlər. Onlar, məsələn, ABŞ-ın vitse-prezidenti Vens kimi sülhdən danışanda belə, bunun "güc yolu ilə" əldə ediləcəyini güman edirlər. Mahiyyət etibarı ilə bu, hansısa regional və ya böyük dövlətin simasında bu balansın tənzimləyicisinin məcburi olduğu köhnə güc balansı siyasətinin residividir. Avropada Fransa, Rusiya və Böyük Britaniya müxtəlif tarixi dövrlərdə belə "balansçılar" kimi çıxış etmişlər. Amma qeyri-bərabər inkişaf qanunu ucbatından bu "balansçılar"ın yaratdığı balans gec-tez pozulub, bu da yeni regional və qlobal kataklizmlərə gətirib çıxarıb, nəticədə yeni perspektiv üçün yeni qüvvələr balansı formalaşıb. Müasir Qərb analitikləri ABŞ-ı dünya siyasi sisteminin sabitliyinin əsas tənzimləyicisi kimi irəli sürərək beynəlxalq münasibətlərin mənzərəsinə belə baxırlar. Onlar üçün 12 günlük müharibə ABŞ-ın bu statusunun təsdiqidir.

Bu, yeni qlobal böhranlara və münaqişələrə səbəb olan təhlükəli yanlış təsəvvürdür. Birincisi, İsraillə İran arasında raket zərbələri mübadiləsinin dayandırılmasına nail olan ABŞ prezidenti Donald Trampın qələbəsinin uzunmüddətli sülhə gətirib çıxaracağını söyləmək mümkün deyil. Amerika kəşfiyyat xidmətlərinin özləri tez bir zamanda bəyan etdilər ki, İranın nüvə tədqiqatları sahəsində elmi tədqiqat və sənaye potensialı məhv edilməyib, sadəcə müvəqqəti olaraq məhdudlaşdırılıb.

İkincisi, Tehran atəşkəs rejimini onun işğalçı üzərində qələbəsi kimi səciyyələndirib və bütün ölkədə bayram kampaniyası keçirib. İran tərəfi nüvə proqramını məhdudlaşdırmaq üçün heç bir öhdəlik götürməyib. Üstəlik, İsrailin israr etdiyi nüvə tədqiqatları sahəsində dinc tədqiqat planlarından əl çəkməyəcəyini artıq bəyan edib. Bu kontekstdə Tehranı Buşehr atom elektrik stansiyasını tikən Rusiya tərəfi də dəstəkləyir. Beləliklə, İranın nüvə enerjisinin inkişaf perspektivləri gələcək uzunmüddətli danışıqların mövzusudur. Amma daha önəmlisi odur ki, İsrailin zərbəsinin əsas məqsədi - Tehranda ayətullah rejiminin devrilməsi - həyata keçirilməyib. Fakt budur ki, İran rejimi dinin, əsas ailə dəyərlərinin və ümumilikdə mənəvi prinsiplərin sistemli böhranını yaşayan müasir Qərb cəmiyyətində olmayan möhkəm ideoloji təmələ malikdir.

Yuxarıda deyilənlərin fonunda dünya birliyinin və beynəlxalq təhlükəsizliyin perspektivləri necədir? Fikrimizcə, Qərbin dünya liderliyi istəyi yaxşı heç nəyə gətirib çıxara bilməz. Dünya birliyinin subyektləri kor deyil. Onlar görürlər ki, nüvə silahı olmadan İran Qərbin təzyiqlərinə effektiv müqavimət göstərə bilməyib. Eyni zamanda, ABŞ çətin ki, nüvə silahına malik olan Pxenyanla münasibətləri gərginləşdirməyə qərar versin. Bu müqayisə obyektiv olaraq Nüvə Silahlarının Yayılmaması haqqında Müqavilənin və digər beynəlxalq hüquqi sənədlərin bütün qadağalarına baxmayaraq, mütləq nüvə deyil, kütləvi qırğın silahlarına (KQS) sahib olmaq istəyini daha da artıracaqdır. Gec-tez həm kütləvi qırğın silahları, həm də onların daşıyıcıları üçün müvafiq qara bazarın meydana çıxacağını güman etmək də icazəlidir. Əslində bu bazar artıq formalaşıb. Axı mediaya sızan məlumatlara görə, KXDR və İran orduları ilə xidmətdə olan raketlərin prototipləri hələ 1960-cı illərdə Misirdə alınıb. Qərbin texnoloji üstünlüyünə heç bir şübhə yoxdur. Bunu həm İranda, həm də daha əvvəl Həmas və Hizbullaha qarşı hərbi əməliyyatlarda İsrail tam şəkildə nümayiş etdirdi. Lakin heç kim KQS-nin yayılmasının yeni ocaqlarının və onların yeni növlərinin yaranmasına zəmanət verə bilməz. Çox güman ki, bu "yeni şeyləri" əldə etmək istəyən hər cür terror təşkilatlarının sayı da artacaq, eləcə də müxtəlif ölkələrdə yığılıb, istifadə olunmasını gözləyən nəhəng maliyyə köpüyü - mütləq konstruktiv məqsədlər üçün deyil.

Bütün bunlar qeyri-müəyyənliyin səviyyəsini artıran və son nəticədə beynəlxalq münasibətlərin sabitliyi üçün ciddi mənfi nəticələrə gətirib çıxaran amillərdir. Və bunu qabaqcadan görmək üçün parlaq proqnozçu olmaq lazım deyil. "Sülhün güc yolu ilə" təmin edilməsinə dair özündən razı planlar qəbuledilməzdir. Çünki hər bir böyük qüvvə üçün həmişə daha böyük qüvvə olacaq və bu qüvvələrin toqquşması istər-istəməz kataklizmə gətirib çıxarır. Qərb siyasətçiləri son vaxtlar bu barədə getdikcə daha az danışsalar da, nüvə silahının istifadəsi ilə bağlı kataklizmin nə olduğu hamıya məlumdur.

**V.VƏLİYEV**

RAKURS

# Yekaterinburq hadisələrinə paytaxt sakinlərinin BAXIŞI

SORĞU




***Son zamanlar Rusiya Federasiyasının müxtəlif bölgələrində azərbaycanlılara qarşı baş verən zorakılıq, işgəncə və qəsdən qətl hallarının artması cəmiyyətimizdə dərin narahatlıq və hiddət doğurur. Bu hadisələr təkcə ayrı-ayrı vətəndaşların hüquqlarının pozulması deyil, həm də etnik-milli zəmində baş verən diskriminasiya nümunələri kimi qiymətləndirilməlidir. Bəs vətəndaşlarımız bu barədə nə düşünür? SİA bu mövzuda sorğu edib.***

**Şəhər sakini Esmira Əhmədova:** "Heç kim, sadəcə, milliyyətinə görə bu cür rəftara layiq deyil. Biz azərbaycanlıyıq, amma ilk növbədə insanıq. Harada yaşamağımızdan asılı olmayaraq, hər bir insanın hüququ, həyatı və ləyaqəti qorunmalıdır. Bu, qanunun, vicdanın da tələbidir. Rusiyada yaşayan



minlərlə azərbaycanlı illərlə həmin ölkənin inkişafında, iqtisadiyyatında, müxtəlif sahələrdə çalışaraq öz töhfəsini verib. İndi isə onların üzərinə haqsızlıqla, zorla, nifrətlə gəlmək nə insafdır, nə də qanunauyğundur.

Biz xalq olaraq bu haqsızlığa səssiz qala bilmərik. Bu cür hadisələrə qarşı səsimizi ucaldırıq, çünki susmaq razılaşmaq deməkdir. Biz tələb edirik ki, bu cinayətlərə dərhal hüquqi qiymət verilsin, günahkarlar cəzalandırılsın, haqsız yerə əziyyət çəkən vətəndaşlarımızın hüquqları bərpa olunsun. Bu məsələ təkcə dövlətin yox, həm də xalqın vicdan məsələsidir. Biz birlikdə olduğumuz müddətcə heç kim bizim haqqımızı tapdalaya bilməz".

**Şəhər sakini Alla Roketianskaya:** "Hazırda Azərbaycan ilə Rusiya arasında yaşanan gərginliklər və qarşılıqlı ittihamlar məni dərindən sarsıdır. Mən bu proseslərə qarşı-



yam və yaşanan hadisələr mənə mənəvi iztirab verir. Bu gərginliyin və düşmənçilik ritorikasının əsas səbəblərini anlamaqda çətinlik çəkirəm. Təəssüf ki, bu situasiyada siyasi qərarların nəticələrini sadə vətəndaşlar - yəni hər iki ölkənin sülhsevər insanları daşımalı olurlar.

Siyasi qarşıdurmaların dərinləşməsi nəticəsində həm azərbaycanlılar, həm də ruslar qarşılıqlı şəkildə günahlandırılır. Lakin bu, yalnız cəmiyyətlərarası münasibətlərə mənfi təsir göstərir və tarixən bir yerdə yaşamış xalqlar arasında süni nifaq yaradır.

Qeyd etmək istəyirəm ki, mən burada Azərbaycanda - birinci və ikinci Qarabağ müharibələri zamanı da yaşamışam. Heç vaxt ölkəni tərk etməmişəm. Həmin dövrlərdə də ailəm buradaydı və biz bu prosesləri yerində müşahidə etmişik. Mən Azərbaycan xalqı ilə birgə həm ağrıya, həm də ümidlərə şahidlik etmişəm. Bu gün isə baş verənlərin mahiyyətini anlamaq çətindir".

**Şəhər sakini Gülşən Seyidova:** "Bu günlərdə eşitdiklərim, gördüklərim məni sarsıdıb. Rusiyada bizim millətin başına gətiri-



lənlər adamın qanını dondurur. Günahsız insanlarımızı döyürlər, təhqir edirlər, öldürürlər. Və heç kim demir ki, bu niyə belə olur?

Sual verirlər: Niyə? Cavab verim: Çünki biz susmuşuq. Uzun illərdir biz soydaşlarımızın Rusiyada çəkdiyi çətinliklərə ya uzaqdan baxmışıq, ya da ümumiyyətlə baxmamışıq. İndi isə susmaq artıq mümkün deyil. Çünki bu, artıq dözülməz hal alıb.

O insanlar orada çörək dalınca gediblər. Hər birinin ailəsi var, körpəsi var, qocası var. Onlar cinayətkar deyillər, onlar sadəcə işləyib dolanmağa çalışan adamlardır. Amma indi onların başına gələnlər heç bir insana yaraşmaz".

**Şəhər sakin Emin Ağabəyov:** "Son vaxtlar Rusiyada azərbaycanlılara qarşı baş verən hadisələr bizi dərindən narahat edir. Bu, artıq tək-tək şəxslərin problemi deyil, bu bütöv bir xalqın üzləşdiyi hörmətsizlik və haq-



sızlıqdır. İnsanlarımız döyülür, alçaldılır, haqsız yerə günahlandırılır. Bunlar sadəcə xəbərlər deyil - bunlar ailələrin dağılması, anaların göz yaşları, övladların atasız qalması deməkdir.

Bizim xalq daim səbrli olub. Yad torpaqlarda da başını aşağı salıb, əziyyət çəkib, işləyib, halal çörəyi ilə dolanıb. Amma səbrin də sərhədi var. İnsan yalnız bir şey istəyir - ədalət! Biz ədalət tələb edirik. Nə artıq, nə əskik. Burada məsələ təkcə millət məsələsi deyil. Burada insanlıqdan, vicdandan danışırıq. İnsanlara sadəcə mənsubiyyətinə görə bu cür zülm etmək - bu nə dinə sığır, nə qanuna, nə də vicdana.

Mən bir vətəndaş kimi buradan deyirəm: biz səssiz qalmayacağıq. Biz bu haqsızlığa göz yummayacağıq. Biz bir-birimizin arxasında dayanmalıyıq. Təkcə hökumət yox, biz - xalq olaraq, bir-birimizə sahib çıxmalıyıq".

**Şəhər sakini Fərid Bayramov:** "Rusiyada baş verənləri eşidib susmaq olmur. İnsanlarımız əzilir, incidilir, övladlarımız təh-



qir olunur. Bir millət kimi bu bizi incidir. Amma gəlin bu olaylara bir az da dərindən baxaq.

Bu baş verənlər təkcə bir ölkədə yaşayan azərbaycanlılara qarşı deyil, ümumilikdə zəif görünən, sahibsiz sayılan hər bir insana qarşı olan münasibətdir. Bu, sistemli ayrı-seçkilik, biganəlik və laqeydlikdir. Və bəli, bu bizə bir dərsdir.

Biz illərlə deyirdik ki, "orada iş var", "orada pul var", "orada imkan var". Amma bu hadisələr göstərdi ki, pulun, imkanın yanında qürur, təhlükəsizlik, dəyər də lazımdır. İnsan yalnız qazancı ilə deyil, eyni zamanda ləyaqəti ilə yaşamalıdır".

**Şəhər sakini Süleyman Məmmədov:** "Bu haqsızlıq qarşısında biz bir millət kimi susmamalıyıq. Hökumət səviyyəsində, ictimai səviyyədə, media səviyyəsində bu mə-



sələyə ciddi reaksiya verilməlidir. Çünki susmaq, başqasına bizi əzməyə icazə verməkdir.

Bu baş verənlər bir daha bizə göstərdi ki, güclü olmaq üçün yalnız pulla deyil, birliklə, həmrəyliklə, daxili güclə silahlanmaq lazımdır. Biz bir yerdə olduğumuz zaman bizi heç kim aşa bilməz.

Unutmayaq: bu gün Rusiya, sabah başqa ölkə Amma biz hər yerdə özümüzü qorumalı, bir-birimizə sahib çıxmalıyıq. Allah bütün zərərçəkən soydaşlarımıza səbir versin. Və bizə - ayılmaq, düşünmək və bir olmaq gücü versin".

***Xeyrənsə Piriyeva***



# Ermənistan iqtisadiyyatı çökə bilər

*ƏCNƏBİ EKSPERTLƏR*




Rusiya Ermənistana məktub hazırlayır, məktubda onun Avropa İttifaqı ilə yaxınlaşma normalarının Avrasiya İqtisadi İttifaqının (AİI) qaydaları ilə ziddiyyətlərini qeyd edir. Bu barədə mətbuata Rusiya baş nazirinin müavini Aleksey Overçuk məlumat verib. "Biz Ermənistanın Avropa İttifaqı ilə yaxınlaşması çərçivəsində baş verən prosesləri müşahidə edirik. Qeyd edirik



ki, Ermənistan Respublikasının hüquqi bazasında bəzi sertifikatlaşdırma qaydalarını sadələşdirən tənzimləmələr peyda olur",- o əlavə edib: "Biz müvafiq tədbirlərin tətbiqi məsələsinə baxacağıq".

Ermənistanın Aİ ilə yaxınlaşma ilə bağlı hansı konkret hərəkətləri son vaxtlar Rusiyanın bu qədər gərgin münasibətinə səbəb olub? İrəvan buna necə reaksiya verə bilər və edəcək? Caliber.Az-ın bu suallarını rusiyalı və belaruslu politoloqlar cavablandırıb. Ekspertlərin şərhlərini oxucularımıza təqdim edirik.

Belaruslu politoloq, Analitik Proqnozlaşdırma Mərkəzinin baş eksperti Aleksey Çernov hesab edir ki, Moskva bu məsələ ilə bağlı İrəvanla ardıcıl müzakirələr apararaq, Ermənistanın Aİ ilə yaxınlaşmasının sonrakı dinamikasının nəyə gətirib çıxara biləcəyini dəfələrlə açıqlayıb.

"Moskvanın narahatlığı və qıcıqları bir neçə ildir ki, Ermənistanın anti-Rusiya mövqeyini konkret hərəkətlərlə dəstəkləməyə başladığı andan yığılıb. Hər şey bu ölkədə avropalı müşahidəçilərin missiyasının meydana çıxması ilə başlayıb və Fransadan silah alınması ilə davam edib. Lakin Rusiya onun xüsusi silah bazarında tərəfdaş ölkə seçmək qərarına kifayət qədər təmkinli reaksiya verib.

Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olan Ermənistan üçün bu cür hərəkətlər bu təşkilatın nizamnaməsinin bəzi müddəaları ilə ziddiyyət təşkil edə bilər, lakin bir sıra KTMT üzvləri (məsələn, Qazaxıstan) bəzən başqa ölkələrdən silah alırlar, ona görə də Moskva bu mövzuda İrəvanla açıq münaqişəyə getmədi. Lakin Qərb dövlətləri ilə iqtisadi əlaqələr tamam başqa məsələdir. Bu baxımdan Rusiya öz maraqlarını və bazarlarını qorumaq üçün daha sərt davranmaq niyyətindədir, ilk növbədə ona görə ki, məhz Qərb öz iqtisadi sanksiyaları ilə Rusiya Federasiyasına mümkün qədər çox zərər vurmağa hər cür cəhd edir.

AİI-nin əməkdaşlıq formatı isə Qərbin sanksiyalarına qarşı bir növ iqtisadi "güllə keçirməyən jilet"dir. Ola bilsin ki, Moskva üçün ilk əlamət Bayden administrasiyası ilə imzalanmış ABŞ-la strateji tərəfdaşlıq sazişi olub və bu sazişdə Ermənistan öz ərazisindən Rusiyaya gələn "boz idxala" nəzarət etmək üçün müəyyən öhdəliklər götürüb. Sənəd sırf formallıq kimi görünürdü, amma buna baxmayaraq, İrəvanın Rusiya ilə münasibətlərini qurban verməyə, ən yaxın tərəfdaşına xəyanət etməyə, belə desək, birbaşa "Qərb sanksiyalar klubu"na qoşulmağa hazır olduğu aydın oldu",- deyə politoloq bildirib.

Onun sözlərinə görə, Moskva uzun müddət nəzakətlə İrəvanı heç bir qəfil addım atmamağa, Rusiya Federasiyası ilə qurulmuş iqtisadi əlaqələri pozmamağa inandırıb, ona görə ki, bu, ilk növbədə Ermənistanın özünə fəlakətli təsir göstərəcək.

"Paşinyan və komandasının üzvləri bu ilin qışında və yazında Aİ ilə iqtisadi əməkdaşlığa dair konkret sənədlər imzalamayacağına, real fəaliyyətlə deyil, ümumi bəyanatlarla kifayətlənəcəklərinə söz vermişdilər, lakin görünür, sözlərinin üstündə durmadılar. Yeri gəlmişkən, Ermənistanın baş naziri bütün bu vədləri vermişdi. Bu faktı Baş nazirin müavini Overçuk da təsdiqləyib.

Amma Paşinyanın çox hərəkətli oyunlara olan sevgisi və ona xas siyasi avantürizm, deyəsən, qalib gəlib. Rusiyada iri biznes sahibi olan rusiyalı iş adamı Karapetyanın həbsindən, eləcə də "Ermənistanın Elektrik Şəbəkələri" şirkətinin milliləşdirilməsi ilə bağlı açıqlamalarından sonra məlum oldu ki, Paşinyan qaydalarla oynamaq istəmir, öz oyun qaydalarını Moskvaya sırımaq istəyir. Bununla belə, o, çox yanılır - Rusiyanın Ermənistana həm iqtisadi sahədə, həm də AİI-nin rüsum və güzəştləri sferasında çoxlu təzyiq üsulları var ki, onlar hər an ləğv oluna bilər. Ermənistan iqtisadiyyatı üçün bu, praktiki olaraq çöküş olacaq, ona görə də Baş nazir Overçukun təmsil olunduğu Rusiya aydın və aydın xəbərdarlıq edir ki, bu da Rusiya Federasiyasının mövqeyini və Ermənistan üçün konkret şərtləri izah edir: ən qısa müddətdə Aİ ilə iqtisadi əməkdaşlığın qurulması üçün öz siyasətinə və fəaliyyət proqramına yenidən baxılmalıdır. Əks halda, Rusiya sanksiyaları qüvvəyə minəcək ki, bu da faktiki olaraq Ermənistan üçün AİI çərçivəsində onun imtiyaz və öhdəliklərinə və Rusiya Federasiyası ilə müxtəlif müttəfiqlik sazişlərinə yenidən baxılması deməkdir. Bunlar isə qaz tarifləridir, Ermənistan üçün bir anda fırtına qalxacaq, ən əsası isə Rusiyaya daxil olan erməni mallarının rüsumları. İrəvan öz məhsullarının bazarını dərhal itirəcək, çünki onları erməni sahibkarlardan almaq rusiyalı tərəfdaşlar üçün sərfəli olmayacaq- onların qiymətləri dərhal qalxacaq. Ticarət dövriyyəsi bir neçə milyard həcmində çökə bilər, Ermənistan sadəcə olaraq belə bir zərbəyə tab gətirməyəcək. Ümid etmək istərdim ki, Paşinyan bu riskləri nəzərə alır",- deyə A.Çernov yekunlaşdırıb.

Rusiyalı politoloq və iqtisadçı Renat Savinin fikrincə, Avrasiya İqtisadi İttifaqına üzv olan bir çox ölkələr Ermənistanın iki cəbhədə oynamaqda davam etmək və hətta Avropadan olan rəqiblərindən AİI bazarlarına öz mənfəəti ilə mal tədarük etmək niyyətində olmasında maraqlıdırlar.

Paşinyanın iki kresloda əyləşməkdəki "virtuoz" məharəti AİI nizamnaməsinin fəaliyyət prinsiplərini təhdid etməyə başlayıb. Rusiya kifayət qədər uzun müddətdir ki, bu həssas məsələlərdə ona güzəştə gedir, lakin bu, artıq



davam edə bilməz. İrəvanın öz hərəkətlərinin məntiqinə əməl etmək istəməməsi, AİI-dəki tərəfdaşları ilə münasibətlərdə qırmızı xətləri pozması göz qabağındadır. Və burada Aleksey Overçuk çox ardıcıl olaraq Rusiyanın mövqeyini açıqladı. Onun sözlərinə görə, Ermənistan Respublikasının qanunvericilik bazasında Avrasiya İqtisadi İttifaqına üzv olmayan dövlətlərin ərzaq məhsullarının sertifikatlaşdırılması ilə bağlı bəzi sadələşdirən qaydalar peyda olur. Bu o deməkdir ki, təşkilatın tələblərinə cavab verməyən məhsullar AİI-nin daxili bazarına daxil ola bilər.

Overçuk onu da əlavə edib ki, Rusiya bu məsələni baxılmaq üçün Avrasiya İqtisadi Komissiyasının Şurasına təqdim edir və müvafiq tədbirlərin işlənib hazırlanması üzərində işləyəcək və bu, görünür, İrəvanın AİI bazarı çərçivəsində öz məhsullarının satışında müəyyən endirimlərdən və üstünlüklərdən məhrum olacağı anlamına gəlir. Söhbət ondan gedir ki, Rusiya bu mexanizmi həyata keçirməyə necə başlaya bilər: tədricən İrəvanı cilovlamağa çalışacaq, yoxsa Ermənistan iqtisadiyyatına "soyuq duş" effekti verəcək,- deyə R.Savin yekunlaşdırıb.

***Tərcümə- Elçin Bayramlı***



**MƏTANƏT**

# Ətraf mühit naminə: polietilen paket yox, ekoçanta

**3 iyul - Beynəlxalq polietilen paketsiz gündür. Bu gün ən çox istifadə edilən daşıma vasitəsinin-polietilen paketlərin yaratdığı real və vacib problemlər haqqında maarifləndirmənin gücləndirilməsinə həsr olunub.**

Bu küləkli şəhərimizin küləkli günlərində illərlə başına havada uçuşan polietilen paket keçənlərdən biri kimi bu torbaların satışa daxil edilməsinə sonsuz dərəcədə sevinənlərdən də biriyəm. Ən birinci ona görə ki, bizim əlimiz-qolumuz var, başımıza keçən paketləri çıxarıb özümüzdən kənarlaşdıra bilirdik. Bəs yazıq heyvanlar necə? Heç ola bilməz ki, küçədə başına, ayağına polietilen paket dolaşan və bununla mücadilə edən it, pişik görməyəsiniz. Və onları bu bəladan azad etməmiş olasınız...

Elə ki, külək başladı, bu mərkəzi təmiz, kənarları haqqında isə deməyə söz tapmadığım şəhərimizdə yüngül məişət tullantıları, məsələn, vafli, peçenye, konfet kağızları, əsasən də rəngbərəng polietilen paketlər havada tüğyan edir. Dəfələrlə külək onları gətirib sifətimizə elə çırpıb ki, bunu qarşıdan gələn kiminləsə toqquşmaq kimi düşünmüşük, lakin bir anda səhvimizi anlamışıq və onun adam deyil, polietilen paket olduğunu görmüşük.

Polietilen paketlərin ağacların budaqlarında, binaların balkonlarında, obyektlərin qapı-pəncərələrində bəzən aylarla yelləndiyini də görmüşük. Yəni onun nə özü düşüb oradan getmək istəyib, nə də kimsə onu qoparıb atmaq istəyib.

Deməli, belə geniş meydan verilən polietilen paketlər tək ekologiyaya deyil, həm də bizə ağlagəlməz dərəcədə ziyan vurur. Təsəvvür edəndə ki, bu paketlərin bir dəfə başımıza keçməsi, üzümüzə çırpılması zamanı nə qədər mikrob qəbul edirik, adam dəhşətə gəlir.

Və bütün bunlara görə də polietilen paketlərin satışa daxil edilməsinə sevinməmək mümkün deyil. Ən azından ona görə ki, bəlkə camaat pulunun qədrini bilə, ya onları almaya, ya da alanda elə istifadə edə ki, küçələrdə onlarla daha çox rastlaşmayaq.

Bir faktı da söyləməyin yerinə düşdüyünü nəzərə alıb deyim ki, əvvəllər dəfələrlə marketlərdə alış-veriş zamanı kassada məndən əvvəlki müştərilərin polietilen paketləri dəstə ilə götürüb apardıqlarının şahisi olmuşam. Həmişə də düşünmüşəm ki, görəsən onları nə üçün götürürlər, nəyə lazımdır bu paketlər? Onsuz da aldıqlarımızı yığmaq üçün yetərli sayda paket verilirdi də bizə.

Vallah, çox maraqlıdır. Nə üçün, bilmirəm, ancaq bu həyatda hələ də bəzi insanları tanımaqda çətinlik çəkməkdəyik. Həmin insanlar polietilen paketlər marketlərdə və alış-veriş mərkəzlərində satışa daxil ediləndə üsyan etməyə başladılar ki, nə üçün o, pullu olub. İndi də elə hey beləlləri ilə rastlaşır və onların giley-güzarlarına şahid oluruq.

Belə olanda deyirəm ki, lap yaxşı olub polietilen paketlərin satışa daxil edilməsi. Xarici ölkələrdə buna illər öncə keçilib. Bəli, ekologiyanın qorunması naminə. Bizsə hələ xeyli gecikmişik. Gecikdiyimizə görə də paketlər başımıza daha çox keçib, üzümüzə daha çox çırpılıb. Neçə-neçə heyvanın ölümü ilə nəticələnib. Hələ torpaq altında da çürümək bilməyən bu torbaların əkin yerlərinə nə qədər ziyan vurduğundan, su mənbələrini qurutduğundan danışmıram.

İndi marketlərdə alıcılarla rastlaşırıq ki, bu paketləri almağı artıq hesab edir və alış-veriş üçün evindən ya paket, ya da aldığı ərzaq məhsulları daşımaq üçün başqa vasitələr gətirir. Onlara baxdıqca polietilen paketin satışa daxil edilməsini ürəkdən alqışlayıram. Fərqinə varan varsa, artıq şəhərimizin küçələrində bu paketlərlə az-az rastlaşırıq. Buna elə bilirəm ki, küçələrin təmizliyinə aid təşkilatlar və bu işi həyata keçirənlər də ürəkdən sevinir.

Hə, ey heç nəyin qədrini bilməyən insan! İndi buyur, get, marketlərdən pul ver, polietilen paket al, gətir içini boşalt, özünü də hara gəldi at, görüm, necə atırsan. Sonra da bu paketlər binəva insanların və heyvanların başına keçsin görüm, necə keçir...

Bu gözəl addımı bu gün də alqışlayır, bundan narazı qalanlarla qətiyyən razılaşmır və şükür edirik ki, həmin paketlər başımızdan boğazımıza enib bizi o dünyalıq etməmiş xilas ola bildik. Hələ bu polietilen paketlərə də yox deməyin, tamamilə ekoçantalara keçməyin zamanı gəlib. Həm öz sağlamlığımızın, həm də ətraf mühitin qayğısına qalaraq ekoçantalardan istifadə edək. Unutmayaq ki, ən kiçik töhfə belə ətraf mühitin qorunmasında böyük rol oynayır.

# Şəhid ailələrinə və müharibə əlillərinə sosial dəstək

Azərbaycanda dövlət sosial siyasətinin önəmli istiqamətlərindən biri də şəhid ailələrinin, Qarabağ müharibəsi veteranları və əlillərinin sosial müdafiəsidir. Azərbaycanda Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə yüksək dövlət qayğısı davamlı xarakter daşıyır və bu siyasətin əsası xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndər Heydər Əliyev tərəfindən 1994-cü il avqust ayının 26-da imzalanan "Azərbaycan Respublikasını erməni təcavüzündən müdafiə edərkən əlil olmuş şəxslərin sosial müdafiəsinin yaxşılaşdırılması haqqında" Fərman müharibə əlillərinin





sosial ehtiyaclarının ödənməsi istiqamətində atılan ilk addım olub. Həmin Fərmanın imzalanması ilə müharibə iştirakçılarının, əlillərinin sosial müdafiəsini gücləndirmək məqsədilə tədbirlərə start verilib. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən tədbirlər sistemli və ardıcıl xarakter daşıyır. Belə ki, dövlətimizin başçısının bu istiqamətdə müvafiq fərman və sərəncamlar imzalaması əlil və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsinə müstəsna töhfələr verir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm Zəfər əldə etdiyi 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə dövlət başçısının tapşırıqları əsasında şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı həyata keçirilən genişmiqyaslı sosial dəstək paketinin icrası uğurla davam etdirilir. Şəhid ailələri və müharibə əlillərinin həyat şəraitinin və rifahının yaxşılaşdırılması məqsədilə dövlət tərəfindən daim xüsusi diqqət və həssaslıqla layihələr icra olunur. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, 44 günlük Vətən Müharibəsinin əldə etdiyi bu böyük Qələbənin əsas qəhrəmanı Azərbaycan əsgəri və zabitidir. Müharibə Zəfərlə başa çatandan sonra Ali Baş Komandanımızın ilk növbədə yaralı hərbçilərimizlə görüşməsi də onlara yüksək hörmət və ehtiramın, qayğının nümunəsidir. Prezident İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə "YAŞAT" Fondunun yaradılması, Fond tərəfindən qısa müddətdə ciddi işlərin görülməsinə başlanılması nəticəsində davamlı olaraq müharibə əlilləri və şəhid ailələrinin, o cümlədən müharibə veteranlarının sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində tədbirlər həyata keçirilib.

## "DÖVLƏT ÖZ ÜZƏRİNƏ NƏ DÜŞÜRSƏ ETMƏLİDİR VƏ EDƏCƏK"

Bu qəbildən olan vətəndaşlarımızın sosial müdafiəsinin möhkəmləndirilməsi, o cümlədən mənzil, fərdi ev və avtomobillərlə təmin edilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir. Prezident İlham Əliyevin təşəbbüsü və tapşırığı ilə bu sahədə müxtəlif böyük maliyyə tutumlu proqramlar həyata keçirilir. Dövlət başçısı çıxışlarının birində qeyd etdiyi kimi, "Dövlət öz üzərinə nə düşürsə etməlidir və edəcək". Ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi uğrunda döyüşlərdə şəhid olmuş insanların ailələrinin, bu döyüşlərdə əlil olmuş şəxslərin həyat şəraitlərinin yaxşılaşdırılması istiqamətində aparılan işlər davam edir. Prezident İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Hər bir şəhidin həyatı təkrarolunmazdır, hər bir şəhidin həlak olması onun yaxınları, qohumları üçün faciədir, böyük bir dərddir. Müharibə dövründə Azərbaycan hərbçiləri həm peşəkarlıq, həm rəşadət, cəsarət, qəhrəmanlıq, eyni zamanda, fədakarlıq göstərmişlər. Şəhidlərimizin əziz xatirəsi hər birimiz üçün müqəddəsdir"

Şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı 5 dəfə genişlənib, Şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzil və fərdi evlə təminatı tədbirləri davam edir. Prezident İlham Əliyev "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" 2021-ci il 25 yanvar tarixli nömrəli Sərən-



camında dəyişiklik edilməsi barədə məlum Sərəncamına əsasən, 2014-cü il yanvarın 1-dən 2023-cü il yanvarın 1-dək yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin, habelə uçota alınma tarixindən asılı olmayaraq, Çernobıl AES-də qəzanın ləğvi (o cümlədən hərbi xidmət vəzifələrinin (xidməti vəzifələrin) yerinə yetirilməsi) ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin mərhələlərlə mənzil və ya fərdi evlə təmin edilməsi üçün Sərəncamda qeyd edilən 2021-2025-ci illər dövrü 2021-2030-cu illər olaraq müəyyən edilib.

## ƏLİLLİYİ OLAN ŞƏXSLƏRƏ 7,8 MİN AVTOMOBİL VERİLİB

Hər il dövlət büdcəsinin tərtibi prosesində dövlət əsaslı vəsait qoyuluşunda (investisiya xərclərində) bununla bağlı vəsait də nəzərdə tutulub. Mühüm sosial proqramlardan biri olan şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı tarixi Zəfərimizlə başa çatan Vətən müharibəsindən sonra qeyd etdiyimiz kimi, 5 dəfə genişlənib. Onlara postmüharibə dövründə 6,8 min, ümumən ötən dövrdə 16 min mənzil və fərdi ev təqdim edilib, bu il isə daha 1000 mənzil verilməsi nəzərdə tutulub.

Əlbəttə ki, dövlət başçısının bu kateqoriyadan olan insanların sosial problemlərinin həllinə xüsusi diqqət və qayğı göstərməsi məmnunluq yaradır. Ölkəmizin ərazi bütövlüyü, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şücaət göstərən qazilərə, şəhid ailələrinə dövlətimiz tərəfindən sosial qayğıların həll edilməsi üçün ardıcıl olaraq zəruri tədbirlər görülür. Ölkəmizdə şəhidlərə və onların ailələrinə, əlillərə olan münasibət dövlətimizin məqsədyönlü, düşünülmüş və ardıcıl siyasətidir. Bu, dövlət başçısının siyasətinin əsasında ölkənin hər bir vətəndaşına münasibətdə ədalət və humanizm prinsipləri dayandığını bir daha təsdiqləyir.

Müharibə əlillərini əhatə edən mühüm proqramlardan biri də avtomobillə təminatdır ki, bu proqram çərçivəsində müharibə əlilləri



avtomobillə təmin olunurlar. Vətən müharibəsindən sonra müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 567, ümumilikdə ötən dövrdə 7,8 min avtomobil verilib.

2020-2025-ci illər ərzində şəhid ailələrinin üzvlərindən 1200 nəfərə qədəri müalicəyə göndərilib. Bu addımlar onu göstərir ki, dövlətimiz tərəfindən bu qəbildən olan insanlar təkcə evlə təmin olunmur, eləcə də bu və ya digər sosial addımların atılması da onların təminatına yönəldilib.

İyulun 1-dən Azərbaycan Prezidenti İlham Əliyevin məlum Fərmanı ilə müavinət və təqaüdlər artırıldı. Belə ki, şəhid ailəsi, 20 Yanvar şəhidinin ailəsi, Əfqanıstanda həlak olan hərbçilərin ailələri üçün Prezidentin aylıq təqaüdü - 700 manat, müharibə, 20 Yanvar hadisələri, hərbi xidmət vəzifələrini yerinə yetirmək və Çernobıl AES-də hərbi xidmət ilə əlaqədar əlilliyi olan şəxslərə Prezidentin aylıq təqaüdü, orqanizmin funksiyalarından asılı olaraq - 81-100 faiz pozulmasına görə (I dərəcə) - 600 manat; 61-80 faiz pozulmasına görə (II dərəcə) - 500 manat; 31-60 faiz pozulmasına görə (III dərəcə) - 400 manat müəyyən edilib. Vətən Müharibəsi Qəhrəmanlarına Prezidentin aylıq təqaüdü 2200 manata, Azərbaycanın Milli Qəhrəmanlarına Prezidentin aylıq təqaüdü 2000 manata çatdırılıb.

Ümumilikdə 2018-2025-ci illərdə icra olunan 5 sosial islahat paketi üzrə müavinət və təqaüd ödənişlərinə ayrılan illik vəsait 5 dəfə artıb. Yeri gəlmişkən onu da qeyd edək ki, dövlətimizin başçısının 23 dekabr 2024-cü il tarixli Sərəncamına əsasən icra olunan yeni sosial islahat paketi çərçivəsində bu ilin əvvəlindən ölkəmizdə minimum aylıq əməkhaqqı 400 manata, minimum pensiya fevralın 1-dən 320 manata çatdırılıb, həmçinin bütün növ pensiyalar ilin əvvəlindən 8,1 faiz indeksləşdirilməklə artırılıb.

Şəhid ailələrinə diqqət və qayğı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun mühüm istiqamətlərindən biridir. Şəhid ailələrinə və müharibə əlillərinə, milli qəhrəmanlara verilən Prezident təqaüdünün də məbləği ötən dövrdə mütəmadi artırılıb, bu qəbildən olan insanların uşaqlarına aylıq sosial müavinətin verilməsi təmin olunub. Bununla da, şəhid ailələrinin sosial müdafiəsi ildən-ilə yaxşılaşıb, dövlətimizin başçısının bu sahədə həyata keçirdiyi tədbirlər ictimaiyyət tərəfindən hər zaman böyük rəğbət və məmnunluqla qarşılanır.

***Zümrüd BAYRAMOVA***

# Peşəkar jurnalisti necə təyin etməli?

***Peşəkar jurnalistika bir çox ölkədə mətbuatın yaralı yeridir. O yaranın yaranmasına səbəb isə bir çox media orqanında işə cəlb olunma yollarının peşəkar olmamasıdır. Belə ki, bəzi kütləvi informasiya vasitələrində əsasən qohumluq, tanışlıq və ya oxşar səbəblərdən yuxarı post tutmaq, qeyri-peşəkar kimi peşəkarlara iş buyurmaq mümkündür. İşə götürülərkən peşəkarlığın yox, başqa kriteriyaların əsas götürülməsi isə, təbii olaraq, işimizə manеə törətməklə ümumi media bazarına zərər vurur. Media orqanlarının peşəkar kollektiv yaratmaq üçün jurnalist təşkilatları ilə əməkdaşlıq etməsi, peşəkar jurnalistlər ilə universiteti yeni bitirmiş və təcrübəsiz gənclər arasındakı fərqi anlaması bu sahədə uğura səbəb ola bilər.***




Ümumiyyətlə, jurnalistləri özündə birləşdirən təşkilatlar jurnalistlərin peşəkarlığı, keyfiyyət prinsipləri ilə bağlı bir sıra məlumatlara sahib olmalıdır. Belə hesab edirəm ki, mətbuatın peşəkarlaşmasında jurnalist təşkilatları vacib işlər görə bilər. Bu, o halda mümkündür ki, media təşkilatlarının özləri bir koorparasiya olsunlar. Azərbaycanda vəziyyət elədir ki, media rəhbəri mətbuatdakı jurnalistlərin demək olar ki, hamısını tanıyır. Çünki media bazarı çox kiçikdir, peşəkar jurnalistlərin sayı o qədər də çox deyil. Yəni, kim nə yazır, nədən yazır, redaktorlar hamısını yaxşı bilir və peşəkarı ayırd etmək 2x2 qədər asandır.

Kollektivini gəncləşdirmək istəyən redaktor ola bilər ki, universiteti yeni bitirən və bu sahədə işə yeni başlayan jurnalistləri tanımasın, amma yeni jurnalistin işə qəbulu üçün də bir neçə yazısını oxumaq kifayət edir ki, onun potensialını anlasın. İstedadı ixtisasa balı çatmayıb bir esse ilə qabiliyyət imtahanını keçib jurnalist olmaq olar, amma peşə fəaliyyəti boyunca bazara tab gətirmək olmaz. Bunun çün potensial lazımdır. Təcrübə qazanılandır, lakin potensial qazanılmır, necə varsansa o cür də davam edəcəksən. Etiraf edək ki, Azərbaycanda jurnalist birlikləri və ya təşkilatları özləri də jurnalistlərin peşəkarlığı, medianın arınması ilə bağlı böyük işlər görmürlər.

Azərbaycanda bir media orqanı yaratmaq üçün nə tələb olunur? Əlbəttə ki, ilk növbədə yaxşı maliyyə dəstəyi olmalıdır. Dolayısı ilə vəsaiti ayıran şəxsin istəkləri, tələbləri olacaq. Kimləri işə götürmək, kollektivi necə formalaşdırmaq da çox vaxt onun diqtəsi ilə olur. O sizin qabağınıza siyasi, iqtisadi, ictimai sərhədlər qoyacaq, nələrə toxunmaq, nələr barədə yazmamaq haqda tələbləri olacaq. Bu da jurnalistikaya peşə əxlaqi kodeksindən, qanun baxımından ziddir. Bu halda peşəkar kollektivi necə yaratmaq olar?

Bir ağrılı məqam da odur ki, qəzetlərin peşəkar yazıları, saytların şou xəbərlərinə uduzur. Peşəkar araşdırmaları, təhlilləri, analizləri yazan peşəkar jurnalistlər, əlində mikrofon şou-biznes nümayəndələrinin dalınca qaçıb hər addımını yazan jurnalistlərə uduzur. Mediada reklam bazarı da elə bazar xaosu ilə işləyir, kim peşəkardırsa reklamı o yox, daha çox tıklanan alır.

Daha bir problemli məsələ də ixtisaslaşmış jurnalistlərin azlığıdır. Medai rəhbəri çalışır ki az kadrla daha çox iş görsün, buna görə də bir jurnalist həm mədəniyyətdən, həm sosial sahədən, həm də iqtisadiyyatdan yazmağa məcbur edilir. Dünən şoudan yazan jurnalist bu gün iqtisadi təhlil yazarsa o media orqanının hansı çəkisindən danışmaq olar?



Doğrudur, peşəkarlıq dərəcəsi haqqında hərənin öz təsəvvürü var, amma işə götürəndə və kadrın peşəkarlıq keyfiyyətlərini qiymətləndirəndə media ekspertlərinin, jurnalist təşkilatları nümayəndələrinin rəyindən istifadə edilə bilər. Bu zaman əməkdaşlıq yaxşı effekt verə bilər. Redaktor bir menecerdir, o düşünür ki, komandasını necə seçsin ki, daha effektiv iş görə bilsin. Əgər media orqanının sahibi elə özdürsə onu seçimində günahlandırmaq olmur, o özü kiminlə işləmək daha rahatdırsa onu seçir, kim daha sərfəli əməkhaqqına razı olursa onunla işləyir. Amma bu seçimin güdazına peşəkarlar gedirsə bu zaman narahat olmaq lazımdır. "Media inkişaf edir" dedik, amma yanıldıq. Sosial şəbəkələrin xaosu fonunda ənənəvi və peşəkar mediada çevriliş oldu, peşəkarlar şox xəbərlər, əsilsiz məlumatlar bazarına uduzdu.

Bəzən iddia edilir ki, jurnalistin peşəkar olub-olmadığını media bazarı müəyyənləşdirir. Bununla razı deyiləm. Tələbat bazarı müəyyənləşdirə bilər, oxucu bazarı müəyyənləşdirə bilər, amma peşəkarları bazar yox, media orqanı müəyyənləşdirir. Peşəkar jurnalisti bazarın ayağına verəcəksə o media orqanı peşəkar ola bilməz. Olsa, olsa, gündəmə hesablanmış bir media orqanı olacaq ki, bunu da ən çox peşəkarlıqla yaxından-zaqdan əlaqəsi olmayan, yağışdan sonrakı göbələklər kimi günü-gündən artan saytların timsalında görürük.

Bu saytların yaratdığı yeni media bazarı peşəkar jurnalistikanı sıxışdırmaqla yanaşı qeyri-peşəkar bir media yaratmaqda israrlıdır. Çünki bu cür saytlar adətən əsilsiz, təsdiqsiz, şaiyələr, qarayaxmalar fonunda inkişaf edir və peşəkar jurnalistikanın, həqiqi medianın inkişafına mane olur. İllərini peşəsinə həsr etmiş, bütün peşə inkişaf mərhələlərini keçmiş, xəbərin aşkarlanması, əldə edilməsi, yazılması və yayılması istiqamətində bütün media qaydalarına əməl edən jurnalist, bu saytlara və onun qeyri-peşəkar jurnalistikasına uduzur. Baxın, bazar budur. Əgər bazara uyğun formalaşsaq o zaman gərək peşəkarlığı bir tərəfə atıb reytinq uğrunda vuruşaq. Əsassız məlumat yaymaq, reytinq üçün uydurulmuş xəbər vermək həqiqi jurnalistikanın önünü kəsir. Peşəkar jurnalistika bu bazarın ortasında əliyalın qalıb.

Peşəkar jurnalist, mənbəsi məlum olmayan məlumatları və xəbərləri dərc etmir, amma özünə media orqanı adı verən çox sayt bunu məmnuniyyətlə edir. Jurnalistlər, xüsusilə, istinad mədəniyyətini inkişaf etdirməli, bir başqa media orqanının və ya həmkarının məlumatlarından istifadə edərkən ilk mənbənin göstərilməsinə diqqət yetirməlidir, bu peşəkarlığın birinci qanunudur.

Lakin indi saytlar arasında gedən soyuq müharibə istinad mədəniyyətsizliyi ilə alovlanır. Kimin əli kimin cibindədir, məlum deyil. Xəbər o qədər oğurlanır ki, əsl mənbəyi itir. Yalançı məlumatlar, uydurulmuş əhvalatlarla xəbər hazırlayıb reytinq qazananlar üçün peşəkarlıq, əhəmiyyətini itirmiş bir xüsusiyyətdir.

Jurnalistikadakı peşəkarlar da yarpaq-yarpaq gedirlər mətbuatdan. Kimisi yorulur etinasızlıqdan, kimisi bezir, kimisi də sadəcə küsür. Ölkənin mətbuat tarixində xüsusi payı, çəkisi, yeri, imzası olan media əjdahaları səssizliyi seçir. Yarpaqlar töküldükcə ağacın quru budaqları görünür. O budaqlar bu bazarın tələbatına nə qədər dözəcək, maraqlıdır...

***Lalə Mehralı***

---

*EKSPERT TƏNQİD ETDİ*

# “Nə piyada, nə də sürücü belə bir hərəkəti gözləmir”

"Son illərdə şəhər mərkəzlərində elektrikli skuterlərin sürətlə artması bir tərəfdən ekoloji cəhətdən qənaətcil və rahat nəqliyyat vasitəsi kimi qiymətləndirilsə də, digər tərəfdən artıq şəhər sakinlərinin və sürücülərin ciddi narahatlıq doğuran mövzularından birinə çevrilib". Bu sözləri SİA-ya açıqlamasında texnika elmləri üzrə fəlsəfə doktoru, nəqliyyat eksperti Fərhad Eyyubov deyib.





Onun sözlərinə görə, xüsusilə piyadalar və avtomobil sürücüləri tez-tez şikayət edirlər ki, skuter istifadəçiləri xüsusi ayrılmış skuter və velosiped yolları olsa belə, həmin yolları deyil, piyada səkilərini və ya avtomobil yollarını seçirlər. Bu isə həm təhlükəsizlik, həm də intizam baxımından ciddi problemlərə səbəb olur: "Ekspertlərə görə bu problemin bir neçə əsas səbəbi var. İlk olaraq qeyd edilməlidir ki, bir çox hallarda ayrılmış skuter və velosiped yolları ya qısa məsafəni əhatə edir, ya da bir marşrutu tam şəkildə bağlamır. Yəni bir skuter istifadəçisi bir neçə dəqiqə bu yolda hərəkət edə bilər, lakin sonra o yol qəfil kəsilir və istifadəçi məcburən səkidən və ya avtomobil yolundan istifadə etməyə məcbur qalır. Bu da şəhər planlamasında ciddi boşluqların olduğunu göstərir. Həmçinin bəzi skuter yolları fiziki cəhətdən yararsız vəziyyətdədir: yol örtüyü bərbad vəziyyətdədir, çuxurlar var, səth bərabər deyil və ya parklanmış avtomobillər həmin zolağı zəbt edib. Bu kimi hallar da istifadəçiləri alternativ və qeyri-qanuni yollarla hərəkət etməyə vadar edir.

İkinci bir məsələ sürücülük mədəniyyəti və qaydalara riayət etmə səviyyəsidir. Təəssüf ki, bir çox skuter istifadəçisi yol hərəkəti qaydaları haqqında minimal məlumatla hərəkət edir. Bu insanlar əsasən gənclər və turistlər olur və onlar sürət, adrenalin və qısa yolları seçməklə həm özlərini, həm də ətrafdakıları riskə atırlar. Onlar skuter yollarının nə üçün ayrıldığını, orada necə davranmalı olduqlarını bilmirlər və səkidə, piyadaların sıx olduğu ərazilərdə sürətlə hərəkət etməklə böyük təhlükə yaradırlar. Bu cür hallarda qəza ehtimalı artır, çünki nə piyada, nə də sürücü belə bir hərəkəti gözləmir.

Üçüncü və çox vacib məsələ nəzarət və inzibati tədbirlərin zəifliyidir. Hazırda skuter istifadəçilərinin qaydalara əməl edib-etmədiyini nəzarətdə saxlayan xüsusi bir mexanizm və ya cəza sistemi demək olar ki, yoxdur. Nə yol polisi, nə də bələdiyyə qurumları bu nəqliyyat vasitələrinə kifayət qədər diqqət yetirir. Nəticədə skuter sürücüləri demək olar ki, tam nəzarətsiz şəkildə şəhərdə istədikləri kimi hərəkət edir, qayda pozuntularına görə məsuliyyət daşımırlar. Halbuki, şəhər içində hərəkət edən hər bir nəqliyyat vasitəsi - istər avtomobil, istər velosiped, istərsə də skuter - müəyyən qaydalara tabedir və ictimai təhlükəsizlik bu qaydalara əməl olunmasından keçir.

Vətəndaşlar hesab edirlər ki, bu problemin həlli üçün ilk növbədə skuter yollarının tam və fasiləsiz şəkildə layihələndirilməsi və fiziki olaraq istifadəyə yararlı vəziyyətə gətirilməsi vacibdir. Eyni zamanda maarifləndirmə işləri gücləndirilməli, skuter istifadəçilərinə yol hərəkəti qaydaları izah olunmalı və onların məsuliyyət daşıdığı xatırladılmalıdır. Bundan əlavə, hüquqi bazada müvafiq dəyişikliklər edilməli və bu nəqliyyat vasitələrinin istifadəsinə dair konkret tələblər müəyyən olunmalıdır. Yol polisi və bələdiyyə nəzarət mexanizmlərini gücləndirməli, qayda pozanlara qarşı xəbərdarlıq və cərimə tədbirləri tətbiq edilməlidir. Əks halda, skuter kimi rahat və müasir bir nəqliyyat vasitəsi şəhər mühitində təhlükəli bir bəlaya çevrilməkdə davam edəcək".

***Ziya Hikmətoğlu***

# Qohum evliliyinə fərqli baxışlar

***Ailə Məcəlləsinə edilən son dəyişikliklərə əsasən, artıq birbaşa qohumlar arasında bağlanan evliliklər rəsmi şəkildə tanınmayacaq. Bu dəyişiklik cəmiyyətdə geniş müzakirələrə səbəb olub. Bəziləri bu qərarı ailə sağlamlığının qorunması baxımından doğru addım kimi qiymətləndirir, digərləri isə bunun şəxsi azadlıqlara müdaxilə olduğunu düşünür. SİA olaraq məsələ ilə bağlı şəhər sakinlərinin fikirlərini öyrənməyə çalışdıq:***




**Şəhər sakini Şamil Şamilov:** ”Ümumiyyətlə, öz şəxsimdə, ətrafımda bu qohum evliliyinin tam əleyhinə olmuşam - həm tibbi, həm də mənəvi nöqteyi-nəzərdən. Üstəlik, bu, bizim mentalitetimizə də uyğun deyil. Bəli, bizdə də qohum-əqrəba arasında evlilik hallarına rast gəlinib, amma mən və tanıdığım insanlar həmişə bu məsələnin əleyhinə olmuşuq. Bu cür hallar daha çox bölgələrdə müşahidə olunur. Məsələn, əmioğlu əmioğlunun qızı ilə, ya da bəzən dayı qızı ilə evlənir - belə hallar hələ də davam edir. Qərar qəbul olunub, amma bu hadisələr yenə də baş verir. Təkcə bölgələrlə də məhdud-



laşmır; bu cür evliliklər əvvəl də olub, indi də var. Sadəcə olaraq, bəzi bölgələrdə daha çox, bəzilərində isə daha az rast gəlinə bilər. Bu hallar, ümumiyyətlə, bizim cəmiyyətimizdə uzun müddət mövcud olub. Amma biz artıq maariflənməli və bu vərdişdən imtina etməliyik. Cəmiyyət olaraq qəbul etməliyik ki, bu məsələyə ciddi yanaşmaq lazımdır. Belə evliliklər yolverilməzdir. İndi yəqin ki, bəzi ailələr bu evliliklərin doğurduğu fəsadları artıq görürlər. Onlar da başa düşməlidirlər ki, bu qanun - hər nə qədər gecikmiş olsa da - yerində verilmiş qərardır və olduqca vacibdir. Bu cür hallara cəmiyyətimizdə artıq yol verilməməlidir”.

**Şəhər sakini Mehriban Sadığova:** ”Bəli, bu, tamamilə doğrudur və biz özümüz də görürük ki, bu gün cəmiyyətdə xəstə uşaqların doğulması halları artıb. Müxtəlif xəstəliklər mövcuddur ki, bunlar irsi xəstəliklərdir və



bu da daha çox qohum evliliyi ilə bağlıdır. Bu qərar çoxdan verilməli idi, amma yenə də gec deyil.Təəssüf ki, bölgələrimizdə bu hallara tez-tez rast gəlinir. Amma bu, təkcə bölgələrlə məhdudlaşmır - Bakının özündə də belə hallar mövcuddur. Gənc qızların erkən yaşda nikaha daxil edilməsi kimi hallar da var. Nə qədər desək də, bu hallar hələ də mövcuddur. Ancaq inanıram ki, maarifləndirmə işini bir qədər də gücləndirsək, bu problemin öhdəsindən gəlmək mümkündür. Cəmiyyət olaraq biz kifayət qədər güclüyük və əminəm ki, bu məsələyə qarşı daha ciddi yanaşmaqla müsbət nəticələr əldə edə bilərik”.

**Şəhər sakini Mehdi Yusibli:** ”Düzünü desəm, bu qərar elə əvvəldən verilməli idi. Məncə, qohumlar arasında ailə qurmaq mə-



nasızdır. Ailə, qohumluq münasibətindən daha çox, qarşılıqlı anlayış və sağlam birlik üzərində qurulmalıdır. Mənim fikrimcə, bir-birini əvvəldən tanımayan, ancaq sonradan sevgi və hörmət əsasında tanış olan insanların evlənməsi daha normal və sağlam bir modeldir. Bizim ailədə qohum evliliyi olmayıb. Amma bildiyim qədərilə, ətrafımda belə evliliklər nəticəsində dünyaya gələn uşaqlarda müəyyən sağlamlıq problemləri yaşanıb. Hətta o anın özündə belə, bəzi hallar olub ki, valideynlər vəziyyəti dərhal anlamayıblar. Daha sonralar uşaqda müəyyən problemlər üzə çıxıb. Yəni, bizim evdə konkret olaraq bu cür bir hal baş verməyib. Bildiyim qədərilə belə bir şey olmayıb. Amma bu cür evliliklərin fəsadlarını digər ailələrdə müşahidə etmişik və bu, artıq hər kəs üçün ciddi xəbərdarlıq olmalıdır”.

**Şəhər sakini Çiçək Bağırzadə:** ”Əslində, qohum evliliklərinin qarşısının alınması



çox yaxşıdır. Belə evliliklər nəticəsində bəzən xəstə uşaqlar dünyaya gəlir və onları böyütmək çox çətin olur. Buna görə də qohumlar bir-birilə ailə həyatı qurmaq əvəzinə, bacı-qardaş kimi münasibət saxlamalıdırlar. Təəssüf ki, bölgələrimizdə bu tendensiya hələ də davam edir. Qərar qəbul olunmasına baxmayaraq, bəzi yerlərdə qohum evliliklərinin sayı artmaqda davam edir və bunun nəticəsində fəsadlar da baş verir. Bu məsələdə həm dövlətin, həm də vətəndaşlarımızın üzərinə böyük məsuliyyət düşür. Mən istərdim ki, dövlət bu məsələyə daha ciddi yanaşsın, daha fəal şəkildə müdaxilə etsin. Xüsusilə bölgələrdə belə halların baş verməsinə imkan verilməməlidir. Dövlət bu cür hallardan vaxtında xəbər tutmalı və tədbir görməlidir. Amma nə edək, bu da həyatdır. Bəzən olur ki, insanlar bir-birinə qarşı hisslər bəsləyir və ailə qurmaq istəyirlər. Ancaq hər bir halda düşünülmüş qərar verilməlidir ki, sonradan fəsadlarla üzləşilməsin”.

**Şəhər sakini Gülzar Eminova:** ”Belə deyək, əvvəllər qohum evlilikləri çox olurdu və nəticəsində ciddi fəsadlar da baş verirdi. Əslində, bu evliliklərin fəsadlarını nəzərə al-



maq lazımdır. Çünki çox hallarda bu cür nikahlar xəstə uşaqların dünyaya gəlməsi ilə nəticələnirdi. Baxmayaraq ki, artıq bu məsələyə dair qərar qəbul olunub, bölgələrimizdə bu hallar hələ də davam edir. Düşünürəm ki, bu tendensiya bir müddət də davam edəcək. Çünki bəzi bölgələrdə bu, artıq bir ənənə halını alıb. Amma bu da yadda saxlanmalıdır ki, bu cür evliliklər çox təhlükəli ola bilər. Bir məsələ də var: bəzən dayıqızı ilə dayıoğlu, ya da xalaqızı ilə xalaoğlu arasında sevgi münasibəti yaranır. Yəni qarşılıqlı hisslər olur və nəticədə onlar ailə qurmaq istəyirlər. Bəli, bu da həyatın bir gerçəyidir. Amma belə hallarda da diqqətli olmaq lazımdır. Məsələn, əmioğlu ilə əmiqızının evliliyi genetik baxımdan daha risklidir və bu cür nikahlardan daha çox qorxmaq lazımdır”.

**Şəhər sakini Zəhra Mahmudova:** ”Bu məsələyə mənim yanaşmam belədir: Azərbaycanda qohum evliliyi normal qəbul edilir,



amma Avropada bu, heç də normal qarşılanmır. Digər ölkələr haqqında tam dəqiq məlumatım yoxdur, amma inanıram ki, Azərbaycanın digər şəhərlərində də bu cür hallar mövcuddur. Bəs bu niyə normal hesab olunur? Sizcə, bu doğrudanmı normaldır? Mən belə düşünmürəm. İcazə verin, sizə bir sual verim: Məsələn, bir kişi və qadın bir-birini sevirsə, dövlət buna nə edə bilər? Dövlət bu münasibətə qarşı bilməz. Əslində, biz insanlar olaraq daha normal düşünməli və bu məsələyə sağlam yanaşmalıyıq. Mən bu cür münasibətlərin nə doğru, nə də normal olduğunu düşünürəm”.

***Ziya Hikmətoğlu***

# Yekaterinburq cinayəti: "Velikorus şovinizmi"nin müasir siması

**_Rusiyanın qeyri- millətlərə qarşı zorakılıq, təzyiq siyasətini yalanları ilə pərdələyən, Hind okeanında "ayaqlarını yumaq" arzusunu özü ilə məzara aparan gorbagor Jirinovskinin davamçıları olan medinskilər, solovyovlar, zatulinlər ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən, regionda yaratdığı yeni reallıqları ilə diqqəti cəlb edən Azərbaycanın uğurlarını həzm edə bilmirlər_**





Son günlərdə Sverdlovsk vilayətinin Yekaterinburq şəhərində azərbaycanlı ailələrə qarşı keçirilmiş qanunsuz əməliyyatlar, göstərilən vəhşiliklər, fiziki təzyiqlər Rusiyanın antimüsəlman, islamofob siyasətinin, miqrantlara qarşı dözümsüzlüyünün ifadəsidir. Yekaterinqburdan sonra Vorenejdə eyni əməliyyatların təkrarlanması göstərir ki, Rusiyada humanizm Ukrayna ilə davam etdirilən müharibənin alovlarında yanıb kül olmuşdur.







Hadisələr bəlli olduğundan əlavə izaha ehtiyac qalmır. Tibbi ekspertizanın nəticələrindən də aydın olur ki, artıq cənazələri Azərbaycana gətirilən Səfərov qardaşları Rusiyanın təhlükəsizlik xidmətinin əməkdaşları tərəfindən vəhşicəsinə döyülərək, işgəncələrə məruz qalaraq qətlə yetirilmişlər. Ailənin bəzi üzvlərinə qarşı ağlasığmaz dərəcədə şiddət göstərilmiş, müxtəlif dərəcəli bədən xəsarətləri yetirilmişdir. Hadisələrə nəzər salmaqla, bəzi məqamlara aydınlıq gətirməklə bir həqiqət təsdiqlənir: Rusiyada insan hüquqlarının qorunması, öz vətəndaşlarına diqqət elə "ruscadır."

Hazırda çoxsaylı suallardan ən maraqlısı hadisələrin hansı səbəblərdən və məhz indi niyə törədilməsidir. Bəllidir ki, Ukrayna ilə müharibə aparan Rusiyanın müdafiə potensialı tükəndikcə, əsgəri heyəti azaldıqca hərbi kontingentə ehtiyac da artır. Orta Asiyadan və Cənubi Qafqazdan olan qeyri-rus xalqlarının nümayəndələrinin müharibə zonasına göndərilməsini ən asan, optimal seçim hesab edən Kremlin səlahiyyətliləri "miqrant ovu" variantına üçtünlük verirlər. Bu variantın həlli yolları da bəllidir. Onlar saxta ittihamlarla həbs edilir, sonra "azad olunmaları" üçün alternativ imkan kimi orduya yazılmaq təklif edilir. Beynəlxalq aləmdə görünməyən, amma Rusiyada tətbiq olunan "əvəzli ədalət sistemi"ndə bu ölkənin hüquq normaları, Konstitusiyaya riayət, vətəndaşların hüquqlarının qorunması nədənsə yada düşmür. Tələb də, seçim də dəyişilməzdir: Cəbhə, yaxud cəza. Sistemli xarakter alan, insan resurslarının çatışmazlığının təzahürü olan bu prinsip ölkədə sosial gərginliyi artırmaqla milli azlıqlara qarşı ədalətsizliyin iyrənc formasıdır.

Yekaterinburq hadisələri təsadüfən baş verməyib. Müxtəlif zamanlarda azərbaycanlılar da daxil olmaqla bu ölkə üçün canlı qüvvə olan müsəlmanlara qarşı həyata keçirilən guya vətəndaşlıq qeydiyyatlarının "yoxlanılması", soydaşlarımızın çoxluq təşkil etdikləri bazarlarda, iri ticarət mərkəzlərində qanunsuz "reydlərin" keçirilməsi, paqonlular tərəfindən piştaxtaların vəhşicəsinə dağıdılması Yekaterinburq hadisələrinin anonsu idi. Həştərxanda keçirilən beynəlxalq tədbirə dəvət olunmuş Milli Məclisin deputatı Azər Badamovun sərhəddə saxlanılması protokol qaydalarının pozulması olmaqla siyasi motivli xəbərdarlıq idi.

Azərbaycan tərəfi bu hadisəyə etiraz etsə də, Rusiyadan hələlik rəsmi açıqlama yoxdur. Azərbaycanın mülki təyyarəsinə qarşı insidentin Rusiya tərəfindən törədilməsi subuta yetirilsə də rəsmi Kremlin cinayəti öz üzərinə götürməməsi də narahatlıq doğuran məsələlərdəndir. Rusiya mediasında davamlı xarakter alan anti-Azərbaycan kampaniyası da deyilənlərə əlavə olunsa bir həqiqət təkzibedilməzdir: Məqsədli, sistemli şəkildə həyata keçirilən siyasi, ideolji təxribatların qanlı səhifəsi hələ ki, Yekaterinqburq, qismən də Voronejdir.

Əsası olan bu faktları təsadüfən sadalamadıq. Rusiya Prezidentinin köməkçisi Vladimir Medinski "Russia Today" kanalına müsahibəsində Qarabağ bölgəsini "mübahisəli" ərazi adlandırması, keçmiş Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı faktları təhrif etməsi də təsadüfi deyil. Medinskinin müttəfiq, eyni zamanda, müstəqil dövlət kimi tanınan Azərbaycan haqqında bilərəkdən qərəzli, şovinist mahiyyətli fikirlər səsləndirməsi Yekaterinburq hadisələrinə hazırlığın gedişi, cinayət əməllərinə haqq qazandırmaq bəhanəsidir. Bütün dünya ictimaiyyətinin, beynəlxalq təşkilatların Qarabağı Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanıdığı bir zamanda Medinskinin bu "kəşfi", qərəzli iddiaları siyasi manipulyasiyadan başqa bir şey deyildir. Görünür, Hind okeanında "çəkmələrini yumaq" arzusunu özü ilə məzara aparan gorbagor Jirinovskinin davamçıları olan medinskilər, solovyovlar, zatulinlər ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən, regionda yaratdığı yeni reallıqları ilə diqqəti cəlb edən, Qafqazın siyasi, iqtisadi, hərbi güc mərkəzinə çevrilən, dünyanın enerji və nəqliyyat xəritəsini təşəbbüsləri və müəllifi olduğu layihələri ilə dəyişən Azərbaycanın diplomatik uğurlarını həzm edə bilmirlər. Qarabağın əzəli Azərbaycan torpağı olması faktını tanımayan, millətçi əhval-ruhiyyələrini "velikorus şovinizmi" pərdəsi ilə aktuallaşdıran rusiyalı rəsmilər imperiyanın məhvə məhkum Cənubi Qafqaz siyasətlərinin iflasa uğramaları ilə barışa bilmirlər. Müsahibəsində Qarabağla Donbass arasında eyniləşdirmə aparan Medinski Kreml sahibinə sədaqətini göstərmək istəyib.

Baş verən hadisələr fonunda Kremlin Ermənistanın siyasi arenasında revanşist qüvvələri fəallaşdırması, Cənubi Qafqaz niyyətlərini gerçəkləşdirmək üçün əl altında saxladıqları bu ölkənin sabiq prezidentləri Robert Koçaryanı, Serjik Sarkisyanı yenidən hakimiyyət uğrunda mübarizəyə cəlb etməsi ölkəmizə dolayısı yolla əzələ nümayişi, Cənubi Qafqazda sülh səylərinə mane olmaq cəhdi, imzalanacaq sülh sazişinin qarşısında qırmızı xətt, şlaqbaumdur. Bu sadalananlar isə bölgədə yeni siyasi və informasiya mənzərəsi yaratmaqla Kremlin əvvəlki iddalarının yenilənməsidir.

Rusiya Federal Təhlükəsizlik Xidmətinin maskalı əməkdaşlarının Yekaterinburq şəhərində azərbaycanlıların yaşadıqları mənzillərə xəbərdarlıq etmədən, qapıları vəhşicəsinə qıraraq içəri soxulma, yoxlanış aparılması ilə bağlı göstəriş olmadan əşyaların dağıdılması, qadınlara məxsus zinyət əşlarının qarət yolu ilə mənimsənilməsi kadrlarını yalnvz kriminal filmlərdə görmüşük. Hadisə nəticəsində soydaşlarımızın həbs edilərək kütləvi işgəncələrə məruz qalmaları, xəsarət alan gənclərin tökülən qanlarını yaralıların özlərinə təmizlətdirmələri də rusların dili ilə deyilsə " "oblavaların" qeyri-qanuniliyini göstərir. Mənzillərə soxulan paqonluların özləri ilə ən islahedilməz, siyasi, kriminal motivlərlə həbs edilən, dövlət əhəmiyyətli ifadələrin alınmasında, qatı cinayətkarlara qarşı tətbiq olunan elektroşoklardan istifadə şovinizmdən, vəhşilikdən də artıq qəddarlıqdır.

Azərbaycanla guya strateji müttəfiqlik münasibətlərində olan Rusiya polisinin Azərbaycan əsilli, Rusiya vətəndaşlarına qarşı göstərdiyi qeyri-insani davranışı 1905-ci ildə Sankt-Peterburqda çarizmin dinc əhaliyə qarşı törətdiyi Qanlı bazar gününü, müsəlman xalqlarının qatı düşməninin adı ilə bağlı olan "Stolıpin irticası"nı xatırladır. Etnik azlıqlara qarşı törədilən bütün cinayətlərin sistemli şəkildə, dövlət səviyyəsində həyata keçirilməsi isə dözülməzdir. Ən acınacaqlısı OMON qüvvələrinin Yekaterinqburqda törətdikləri hadisələr fonunda Azərbaycana qarşı ideoloji kampaniyaların gücləndirilməsi, xalqımız haqqında mənfi təsəvvürün yaradılmasıdır. Tibbi ekspertizanın rəyində qeyd olunduğu kimi, zorakılığa məruz qalan, küt alətlə qətlə yetirilən Ziyəddin və Hüseyn Səfərov qardaşlarının başına gətirilən faciəni guya özlərini pis hiss edərək ölməsi kimi qələmə verən Rusiya mətbuatı şovinist siyasəti müdafiə edir. Ekspertlər isə haqlı olaraq qeyd edirlər ki, Yekaterinqburq hadisələri kimi insidentlər müstəntiqlər və ümumilikdə təhlükəsizlik qüvvələri üçün böyük problemlər yarada bilər".

Hadisə ilə bağlı narazılığını Rusiyaya bildirən Azərbaycan Xarici İşlər Nazirliyinin bəyantında da baş vermiş cinayət faktına qanunlar , beynəxalq hüquq normaları çərçivəsində obyektiv yanaşılması tələb olunur. Güclü, humanist, beynəlxalaq hüquq normalarına , bəşəri dəyərlərə hörmətlə yanaşan Azərbaycana sözügedən insidentlə bağlı izahatlar deyil, soydaşlarımızla vəhşi rəftar edənlərin ciddi cəzalandırılması lazımdır. Yekaterinburqda həmvətənlərimizə qarşı zor tətbqinin Voronejdə təkrarlanmasında məqsəd Rusiyanın digər bölgələrində yaşayan azərbaycanlıları, ümumiyyətlə, müsəlmanları qorxutmaq, seçim qarşısında qoymaqdır.

***Xuraman İsmayılqızı***

# "Azərbaycan polisi cəmiyyətin etimad bəslədiyi, güvəndiyi bir quruma çevrilib"

Azərbaycan cəmiyyətində hüquq və asayişin təmin olunmasında daxili işlər orqanları müstəsna rol oynayır. Polis sisteminin müasir hüquqi bazaya əsaslanan, güclü və çevik struktur kimi formalaşması, inkişafı isə ölkəmizin müstəqillik dövrünə, yəni Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonrakı illərə təsadüf edir. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Səbinə Salmanova deyib.Deputat qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin 1998-ci il 24 may tarixli Sərəncamı ilə 2 iyul tarixi "Azərbaycan Polisi Günü" elan olunub və həmin tarixdən etibarən bu əlamətdar gün hər il dövlət səviyyəsində qeyd olunur: "Məhz Ulu Öndərin rəhbərliyi ilə başlanılan hüquqi və institusional islahatlar nəticəsində daxili işlər orqanlarının fəaliyyəti müasir dövrün tələblərinə uyğun şəkildə yenidən təşkil olunub".

S.Salmanovanın sözlərinə görə, bu gün Azərbaycan polisi ictimai asayişin və sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizə və vətəndaşların təhlükəsizliyinin təmin olunması istiqamətində üzərinə düşən vəzifələri uğurla yerinə yetirir: "Azərbaycan Prezidenti İlham Əliyevin hüquq-mühafizə orqanlarına, xüsusilə də daxili işlər sisteminə göstərdiyi xüsusi diqqət və qayğı bu sahədə keyfiyyətli dönüş yaradıb. Son illər ərzində polis orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir təlim və hazırlıq mərkəzlərinin yaradılması, əməkdaşların sosial rifahının yaxşılaşdırılması sahəsində



mühüm addımlar atılıb. Bütün bunlar nəticəsində Azərbaycan polisi bu gün yüksək ixtisaslı, peşəkar və çevik kadrlar korpusuna malik bir quruma çevrilib".

Deputat vurğulayıb ki, Vətən müharibəsi dövründə də Azərbaycan polisi öz üzərinə düşən vəzifələri böyük məsuliyyətlə yerinə yetirib: "Həm ön, həm də arxa cəbhədə ictimai təhlükəsizliyin qorunması, əhalinin əmlak və həyatının müdafiəsi sahəsində polis əməkdaşları böyük əzmkarlıq nümayiş etdirdilər. Hazırda isə işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və yenidənqurma işlərinə paralel olaraq həmin bölgələrdə təhlükəsizlik tədbirlərinin həyata keçirilməsində də daxili işlər orqanlarının üzərinə mühüm funksiyalar düşür. Polis əməkdaşlarının fəaliyyəti sabitliyin qorunmasına, mülki əhalinin və infrastruktur obyektlərinin müdafiəsinə xidmət edir.

"Millət vəkili əlavə edib ki, Azərbaycan polisi bu gün cəmiyyətin etimad bəslədiyi, güvəndiyi bir quruma çevrilib: "Vətəndaşlarımız bu gün polisə təkcə hüquq keşikçisi kimi deyil, həm də təhlükəsizliyin və əmin-amanlığın qarantı kimi baxırlar. Bu, ilk növbədə düzgün idarəetmə siyasətinin və hüquq-mühafizə sisteminə göstərilən davamlı dövlət qayğısının nəticəsidir."S.Salmanova sonda 2 iyul - Azərbaycan Polisi Günü münasibətilə başda Daxili İşlər Nazirinin rəhbərliyi olmaqla, bütün polis əməkdaşlarını və veteranları təbrik edib, onlara möhkəm can sağlığı, xidməti fəaliyyətlərində uğurlar və ailə səadəti arzulayıb: "Əminəm ki, hüququn aliliyini, ölkəmizdəki sabitliyi və ictimai asayişi qoruyan Azərbaycan polisi bundan sonra da dövlətimizin, xalqımızın və qanunun keşiyində əzmlə dayanacaq".

***Xeyrənsə Piriyeva***

# Uşaqlar niyə real oyun oynamaq əvəzinə telefona qaçır?

**"Uşaqların real oyunlardan uzaqlaşıb telefona yönəlməsinin əsas səbəblərindən biri, hətta bəlkə də birincisi, valideynlərin davranış modelidir". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Fərqanə Mehmanqızı deyib. Onun sözlərinə görə, müasir dövrdə bir çox valideyn müxtəlif səbəblərdən - yorğunluq, vaxt çatışmazlığı, səbir azlığı və ya digər şəxsi məşğuliyyətlər üzündən - uşaqları ilə birbaşa məşğul olmaq yerinə onların əllərinə telefon verir. Bu isə ilk baxışda rahat və təsirli bir üsul kimi görünsə də, uzunmüddətli nəticələr baxımından uşağın psixoloji və fiziki inkişafı üçün ciddi təhlükələr yaradır.**



Əksər hallarda valideynlər uşaqlarını sakitləşdirmək, ağlamasının, narazılığının qarşısını almaq və ya sadəcə sakit oturtmaq üçün telefon verir. Uşaq da təbii olaraq diqqətini cəlb edən bu parlaq ekranlı, səsli-görüntülü cihazla məşğul olur. Amma bu sakitlik süni və zahiri bir sakitlikdir. Uşaq orada olan rənglərə, animasiyalara, tez dəyişən görüntülərə bağlanır və beyni həmin stimulyasiyalara öyrəşir. Zaman keçdikcə, uşaq adi real oyunu, dostlarla oynamağı, açıq havada qaçmağı darıxdırıcı və maraqsız hesab etməyə başlayır. Çünki o oyunlar telefondakı qədər parlaq, sürətli və cazibədar deyil. Bu isə uşağın həm fiziki inkişafını ləngidir, həm də sosiallaşma qabiliyyətini zəiflədir.

Ən maraqlısı isə odur ki, telefonla böyüyən uşaqların sakitliyini müsbət hal kimi qəbul edən valideynlər bəzən real oyunla böyüyən, daha çox hərəkət edən, danışan, sual verən uşaqları "çox danışır", "hərəkətlidir", "sakit oturmur" deyərək qınayırlar. Halbuki əslində bu uşaqlar daha sağlam, daha aktiv və daha balanslı inkişaf edirlər. Onların psixoloji və emosional zənginliyi real əlaqələrdən, real oyunlardan qidalanır. Bu uşaqlar həm problem həll etmə bacarıqları, həm sosial münasibətlər qurma bacarıqları baxımından telefonla böyüyən uşaqlardan daha üstün olurlar.



Əgər uşaq sakitləşdirilmək üçün telefonla əvəz olunursa, bu, valideynin məsuliyyətini cihazın üzərinə atması deməkdir. Halbuki eyni nəticə - yəni uşağın sakitləşməsi - onunla oynayaraq, söhbət edərək, birlikdə vaxt keçirərək də əldə edilə bilər. Belə uşaqlar həm valideynlə daha yaxın münasibət qurur, həm də emosional olaraq daha sağlam inkişaf edir. Onlar diqqət yetirildiklərini, qiymətləndirildiklərini hiss edirlər və özlərini daha güvənli hiss edirlər.





Beləliklə, əsas problem uşaqlarda deyil, uşaqları təkbaşına buraxıb məsuliyyəti texnologiyaya ötürən valideynlərdədir. Valideynlər uşaqları ilə real ünsiyyət qurduqda, birgə oyun oynadıqda, birlikdə vaxt keçirdikdə, uşaqların da telefona olan marağı tədricən azalır. Onlar daha çox real münasibət axtarır, özlərini ifadə etməyə çalışır və yaradıcı inkişaf yoluna qədəm qoyurlar. Hərəkətli, danışan, oynayan uşaq - sağlam uşaqdır. Sakit duran və susan uşaq isə çox vaxt daxili dünyasında özünü ifadə edə bilməyən, texnologiyanın təsiri altında davranış modelləri formalaşan bir uşaqdır. Bu baxımdan valideyn məsuliyyəti daha dərindən və ciddiyyətlə dərk olunmalıdır.

***Günel Rəşadqızı***



# Dağıdıcı müxalifət ruspərəst mövqe sərgiləyir

## Əli Kərimlinin, Cəmil Həsənlinin və digərlərinin Yekaterinburqda azərbaycanlılara qarşı zorakılıqların, kütləvi həbslərin həyata keçirilməsinə etiraz bildirməmələrinin real səbəbi mövcuddur

Fəqət, dağıdıcı müxalifətin üzüqara olmuş qara niyyətli Əli Kərimli, Cəmil Həsənli, Arif Hacılı, İsa Qəmbər və bu kimi digər ünsürləri yenə də köhlən atı minib, köntöy-köntöy danışmağa başlayıblar. Gah Azərbaycanı Avropa dəyələrinə qarşı çıxmaqda, gah AŞPA ilə əlaqələrin nizamlanmasına cəhd etməməkdə, gah da daxildə söz və mətbuat azadlıqlarına diqqət yetirməmək də qınayırlar. Xüsusilə də, AXCP sədri Əli Kərimli eyni sayıqlamalarını təkrar-təkrar sosial şəbəkələr üzərində yaratdığı saxta profilləri vasitəsi ilə səsləndirir. Lakin diqqətçəkən məqam ondan ibarətdir ki, bu məxluqlar son günlər Rusiyada kriminal-terrorçu məxluqların azərbaycanlılara qarşı həyata keçirdikləri qəddarlıqlarla bağlı bir kəlmə də olsun hər kəsi məmnun edə biləcək fikirlər söyləmirlər. Niyə, səbəb nədir? Uzun-uzadı araşdırma filan axtarmağa ehtiyac yoxdur. Zatən onları Rusiyanın kriminal dəstələri ilə əməkdaşlıqda günahlandırmaq da yersizdir. Düzdür, Müsavatın indiki başqanı İsa Qəmbərin Rusiyanın xüsusi xidmət orqanları ilə əlaqələrinə dair zaman-zaman yerli və xarici mətbu orqanlarda məlumatlar dərc olunub. Hətta mətbuatda yazılanlara görə, İsa Qəmbər Rusiya xüsusi xidmət orqanlarında "Polkovnik Popov" ləqəbi ilə qeydiyyatdan keçib. Hazırkı, məqamda "Polkovnik Popov" öz üzərinə götürdüyü vəzifəsini yerinə yetirib yetirmədiyini demək çətindir, onu ancaq Azərbaycanın hüquq-mühafizə orqanları bilə bilərlər.

Müsavatın keçmiş başqanı, hazırda partiyanın Ali Məclisinin sədri olan Arif Hacılı hələ AXC-Müsavat iqtidarı dövründə utanıb-çəkinmədən bəyan etmişdir ki, "onlar 9 ölkənin razılığı ilə hakimiyyətə gəliblər, heç kim və heç bir dövlət bu razılaşmanı poza bilməz".

Təbii ki, A.Hacılının qeyd etdiyi 9 dövlət arasında Rusiya ön sırada olan dövlətlərdən olub. Ancaq A.Hacılının xəyalları qısa müddət sonra puç oldu. Onlara ilk zərbəni Rusiyanın xüsusi xidmət orqanları vurdu. Nəticədə, ortaya çıxan Rusiyanın əsas adamları Surət Hüseynov, separatçı Əlikram Hümbətov və digərləri AXC-Müsavat iqtidarını məhv etdilər. Bununla Azərbaycan dövləti və xalqı da əziyyətlərə düçar oldular. Bu gün də ara-sıra A.Hacılının Rusiyada müəyyən dairələrlə əlaqələrinə dair söz-söhbətlər gəzir. İyunun 27-də Rusiyanın Yekaterinburq şəhərində azərbaycanlılara qarşı törədilən vəhşiliklərə, o cümlədən işgəncələrə, qətllərə və diaspor nümayəndələrinə qarşı təzyiqlərə A.Hacılının münasibət bildirməməsi müəyyən şübhələr yaradır. Eyni davranışı AXCP sədri Əli Kərimli və Milli Şuranın sədri Cəmil Həsənli də nümayiş etdirirlər.

### Əli Kərimli susmağa üstünlük verir

Məlum olduğu kimi, tarixən qonşu xalqlara və dövlətlərə qarşı xain hücumlar, qəsblər, zorakılıqlar həyata keçirən Rusiyanın kriminal-terrorçu məxluqları bu gün də ənənəsinə sadiqlik nümayiş etdirir. İyunun 27-də Yekaterinburqda Rusiya cəmiyyətinin özündə quldur kriminal dəstə hesab olunan OMON və Federal Təhlükəsizlik Xidməti Yekaterinburqda dini və irqi ayrı-seçkilik fəaliyyətinə uyğun olaraq azərbaycanlılara qarşı zorakılıqlar, kütləvi həbslər həyata keçirib. 50-dən çox azərbaycanlı polis bölməsinə aparılıb. Polis və xüsusi təyinatlıların hücumu zamanı iki qardaş - Hüseyn və Ziyəddin Səfərov işgəncələrlə öldürülüb. OMON və Federal Təhlükəsizlik Xidmətinin Yekaterinburqda azərbaycanlılara qarşı törətdiyi həbslər və qətllər diskriminasiya, eləcə də milli ayrı-seçkiliyin bariz nümunəsidir. Bu vəhşilik həm də Rusiyanın insanlığa qarşı cinayətlərdən əl çəkmədiyini göstərir. Təbii olaraq Azərbaycan cəmiyyətinin hər bir üzvü, xaricdə yaşayan azərbaycanlılar Rusiyanın hüquq -mühafizə orqanlarının törətdiyi vəhşiliyə sərt münasibət bildirir.

Bu məsələyə yuxarıda qeyd etdiyimiz kimi, dağıdıcı müxalifətin susması müəmmalı suallar yaradır. Aydın olur ki, bu ünsürlər həqiqətən də Azərbaycan xalqından ayrı düşüblər. Onlar üçün əsas niyyət və maraq ölkəmizin imicinə kölgə salınmasıdır. Bunun üçün şeytanla da əməkdaşlıq etməkdən çəkinmirlər. Bu, o dağıdıcı müxalifət təmsilçiləridir ki, "Zəngəzur dəhlizi Azərbaycanın avantürasıdır", "Xankəndidə ermənilərin hüquqları pozulur", "Qarabağın azad edilməsi Koçaryanın, Sarkisyanın Azərbaycanın torpaqlarını işğal etməsindən artıq deyil", "bizim də Paşinyan kimi demokratik baş nazirimiz olaydı" və bu kimi separatçı fikirlər söyləməkdən çəkinməmişdilər.

Dağıdıcı müxalifətin əsas simasızları olan AXCP sədri Əli Kərimli, Milli Şuranın rəhbəri Cəmil Həsənli, AXCP sədr müavini Fuad Qəhrəmanlı Milli Şuranın üzvü Gültəkin Hacıbəyliyə, Müsavat başqanı İsa Qəmbər, ABŞ-da tüfeyli həyat tərzi yaşayan Sevinc Osmanqızına, "fərari diplomat" adını daşıyan Arif Məmmədov, Trol Sadıqlı, Məhəmməd Mirzəli və digərləri ölkəmizin AŞPA-da səsvermə hüququnun məhdudlaşdırılmasını toy-bayram kimi qəbul edib, sevinmişdilər. Eyni vəziyyət Rusiyada azərbaycanlılara qarşı vəhşiliklərin törədilməsindən sonra da hökm sürür. Əli Kərimli və dəstəsi ağızlarını açıb. Soydaşlarımıza qarşı törədilən vəhşiliklərə etiraz bildirmirlər. Halbuki, siyasi partiyanın başlıca məqsədi və məramı xaricdə yaşayan soydaşlarımızı üzləşdiyi problemlərin həllinə dəstək göstərmək, pozulmuş iş hüquqlarının aradan qaldırılması istiqamətində ölkələrə çağırış etmək olmalıdır.

### Milli Şura Rusiyanın layihəsi idi

Əli Kərimlinin, Cəmil Həsənlinin Rusiyada azərbaycanlılara qarşı törədilən vəhşiliklərə susmaları, fikri bildirmələrinin bir adı və cavabı ola bilər, onlar bu və digər formada Moskvada iylənmiş qoca qurdlara bağlıdılar. Vəhşiliyə etiraz eməklə onları qıcıqlandıra və özlərindən narazı sala bilərlər. Onsuz da Milli Şuranın Rusiyanın layihəsi olmasına dair kifayət qədər faktlar və sübutlar mövcuddur. Hələ 2013-cü il prezident seçkiləri ərəfəsi ölkəmizdə gərginlik yaratmaq, siyasi sabitliyə xələl gətirmək üçün Rusiyanın qaranlıq dairələləri Rüstəm İbrahimovun rəhbərliyi ilə Milli Şuranın yaradılmasına nail olmuşdur. Lakin layihə uğurlu nəticələr əldə edə bilmədi, qısa müddət sonra parçalandı və arxivin küncünə sıxışdırıldı. Bununla belə keçmiş agentləri Cəmil Həsənlini işə bərpa etməklə, onun vasitəsi ilə Milli Şuranı ayaqda saxlamağa nail oldular. Cəmil Həsənlinin ara-sıra Rusiyaya getməsi də təsadüfi səfərlər hesab etmək olmaz. Səfərlərinin yalnız kitablarının ruslara təqdim edilməsi və elmi yığıncaqlarda iştirak etməsi olduğu deyilsə də, əslində, müəyyən şəxslərlə danışıqlar və sövdələşmələr aparmasıdır.

Əli Kərimliyə Rusiyadan maliyyə yardımlarının göndərilməsi haqqında mətbuata məlumatlar sızdırılıb. Hətta məsələnin cinayətə qədər gedib çıxması səbəbindən Əli Kərimliyə Rusiyadan pul göndərənlər məhkəmə qarşısına çıxarılıblar. Əli Kərimliyə maliyyə yardımları Moskvada yaşayan azərbaycanlı Rüstəmov Saleh Məhərrəm oğlu və onun yaxın qohumu Rüstəmli Vidadi Valeh oğlu tərəfindən göndərilib. V. Rüstəmli pulu AXCP Rəyasət Heyətinin üzvü Məhərrəmov Aqil Əli oğlu, Gənclər Komitəsinin Ali Məclisinin sədri Nəsirov Ruslan Şamil oğlu, AXCP Nərimanov rayon şöbəsinin sədri Həsənov Babək Qəzənfər oğluna verib. Pul qəbul olunduqdan sonra Əli Kərimli ona "WhatsApp" proqramı vasitəsilə "bəy, sağ ol, çatdı" kimi minnətdarlıq sözlərini yazıb göndərib. Təsdiq olunmuş məlumatlara görə, həmin puldan Qənimət Zahid üçün də hər ay rəhbəri olduğu televiziya kanalının saxlanılmasından ötrü 2.000-2.500 ABŞ dolları göndərib. Təsdiq olunmuş məlumata görə, qısa müddət ərzində ümumilikdə Rusiyadan AXCP sədri Əli Kərimli üçün 411.952 ABŞ dolları məbləğində pul vəsaitləri göndərilib. Bir sözlə, dağıdıcı müxalifətin Rusiya OMON-nun və Federal Təhlükəsizlik Xidmətinin Yekaterinburqda azərbaycanlılara qarşı zorakılıqlar, kütləvi həbslər həyata keçirməsinə etiraz bildirməmələrinin real səbəbi mövcuddur.

***İLHAM ƏLİYEV***

---

*POLİTOLOQ FİKRİ*





# "ABŞ-ın vasitəçiliyi ilə əldə olunmuş atəşkəs tam sülh sazişi deyil"

"Qısamüddətli İran-İsrail müharibəsi dayandıqdan sonra regionda yaranmış mövcud status-kvo həm hərbi, həm diplomatik cəhətdən "müvəqqəti atəşkəs" xarakteri daşıyır. Bir neçə günlük intensiv zərbələr dövründə İsrail Tehran yaxınlığındakı bəzi nüvə-tədqiqat obyektlərini sıradan çıxardığını, İran isə hücumları dəf edərək strateji infrastrukturunu qoruduğunu elan etməklə daxili auditoriyalara "qələbə" narrativi təqdim etdi. Hər iki tərəfin qalib görüntüsü yaratması, əslində, itkilər barədə informasiyanı nəzarətdə saxlamaq və psixoloji üstünlüyü qorumaq cəhdidir; real vəziyyət isə daha mürəkkəbdir". Bu sözləri SİA-ya açıqlamasında politoloq politoloq Zүriyə Qarayeva deyib.Onun sözlərinə görə, ABŞ-ın vasitəçiliyi ilə əldə olunmuş atəşkəs tam sülh sazişi deyil: "Vaşinqtonun prioriteti regional eskalasiyanı yayındırmaq və enerji bazarlarında sabitliyi qorumaqdır. Buna görə də Amerika administrasiyası ilk mərhələdə tərəfləri raket və PUA hücumlarını dayandırmağa, ikinci mərhələdə isə "məhdud dialoq pəncərəsi" açmağa sövq etdi. Bu pəncərə yüksək səviyyəli rəsmi danışıqlardan çox, kəşfiyyat və diplomatik kanallar üzərindən aparılan texniki müzakirələri əhatə edir: İran nüvə obyektlərinin yenidən bərpası üçün vaxt qazanmağa, İsrail isə Tehranın uranı 60+ faiz zənginləşdirmə sürətini ləngitməyə çalışır. ABŞ isə hər iki tərəfə minimum güzəşt və edərək öz vasitəçi rolunu möhkəmləndirir.İndi masada üç əsas paket var.

Birincisi, İranın uranı silah səviyyəsinə çatdırmamaq öhdəliyi və buna qarşılıq müəyyən bank aktivlərinin dondurulmasının qismən açılması. İkincisi, İsrailin Suriyadakı İran dəstəyi-silahlı qruplaşmalara endirdiyi hava zərbələrinin məhdudlaşdırılması müqabilində Tehranın Hizbullah raket infrastrukturuna əlavə silah göndərməməsi. Üçüncüsü, Körfəz və Şərqi Aralıq dənizi enerji marşrutlarının mühafizəsi naminə Hörmüz boğazında "hərəkət azadlığı" mexanizmləri. Bu paketlərin hamısı hələ siyasi qərar mərhələsinə çatmayıb; tərəflərin daxili siyasi balansı güzəştləri çətinləşdirir".Politoloq deyib ki, regionda rəqabətli güc oyununda Səudiyyə Ərəbistanı və BƏƏ açıq hərbi qarşıdurmanın dayanmasını alqışlasa da, İranın zəifləməsindən tam əmin olmadıqları üçün Amerika vasitəçiliyinə ehtiyatla yanaşırlar. Rusiya və Çin isə atəşkəsdən istifadə edərək Tehranla əməkdaşlığı dərinləşdirə, İsrailin Qərb blokuna daha çox bağlanmasından geosiyasi üstünlük qazanmağa çalışır: "Avropa İttifaqı enerji qiymətlərinin sabitləşməsini prioritet görərək dialoq təşəbbüslərini dəstəkləyir, eyni zamanda nüvə obyektlərinə BMT-İAEA nəzarət mexanizminin genişlənməsini tələb edir.Atəşkəsin sabit sülhə çevrilməsi üçün ən böyük risk faktorları gizli kiber-və hibrid əməliyyatların davam etməsi, eləcə də Livan və Qəzza cəbhələrində "təxribat zənciri"nin yenidən alovlanmasıdır.

Hər iki tərəf zəruri saydığı anda məhdud hədəf zərbələrini bərpa etməyə hazırdır. Ona görə də indiki mərhələni daha çox "silahların susduğu, kəşfiyyatın danışdığı pauza" kimi qiymətləndirmək olar.Nəticədə ABŞ vasitəçiliyi qısa müddətdə genişmiqyaslı toqquşmanı durdursa da, köklü razılaşma əldə olunmayınca gərginliyin latent fazada qalması labüddür. İran öz nüvə proqramını tam dayandırmaq niyyətində deyil, İsrail isə strateji təhdid hesab etdiyi potensialı sıfıra endirmədən təhlükəsizlik hissini bərpa etməyəcək. Bu isə o deməkdir ki, Yaxın Şərq üçün əsl dayanıqlı sabitlik hələ də danışıqlar masasında çətin güzəşt tənliklərinə bağlıdır"-deyə o əlavə edib.

***Xeyrənsə Piriyeva***

# Tütündən xilas edir, amma daha təhlükəlidir

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb*



Elektron siqaretlər, adətən, tərkibində nikotin olan maye məhlulu qızdıran və onu nəfəs almaq üçün mümkün olan buxara çevirən cihazlardır. Elektron siqaretlər bir çox ölçüdə və formada olur. Elektron siqaretlərin tərkibində ağciyər xəstəliklərinə səbəb olan nikotin, kimyəvi diasetil, nikel, qalay və qurğuşun kimi zərərli maddələr var. Elektron siqaret istifadə edən insanlar yaranan buxarı ağciyərlərinə çəkirlər və daha sonra normal siqaret istehlakında olduğu kimi geri üfürürlər. Ona görə istifadə edildiyi mühitdə digər insanlar tərəfindən tənəffüs yolu ilə qəbul edildiyinə görə ətrafdakılar da passiv elektron siqaret istifadəçisi olur.



## Adi siqaret qədər təhlükəli

Elektron siqaretlərin zərərli təsirlərindən biri də ölümcül xəstəliyin başlanığıcı olan "bronxiolitis obliterans"dır. Yəni, elektron siqaretlərin tüstüsü ağciyərlərdə hava kisələrini qoruyan makrofaqların fəaliyyətini poza və onların zədələnməsinə səbəb olur. Bu, nəfəs darlığına və öskürəyə yol açır ki, nəticədə orqanizmdə ağır ağciyər xəstəliyi baş qaldırır.

Elektron siqaretlərin tərkibində də adi siqaretlərdəki kimi nikotin olduğu üçün onların asılılıq təsiri kifayət qədər yüksəkdir. Nikotin beyində dopamin ifrazına səbəb olaraq həzz verir. Elektron siqaretdən istifadə edən insanlar zərərlərini və yaratdığı yüksək riskləri bilsələr də ondan istifadə etməyə davam edirlər. Çünki artıq orqanizm ondan asılıdır.

Elektron siqaretlər, tərkibindəki propilen qlikol səbəbindən ağciyərlərdə ciddi qıcıqlanmaya səbəb ola bilər. Eyni zamanda, nikotin 20 yaş ərəfəsində olan yeniyetmələrin və gənclərin beyin inkişafına zərər verir. Xüsusilə, yeniyetməlik dövründə gənclərin beynində qərar qəbuletmə və impulslara nəzarət hələ inkişaf etmədiyi üçün nikotindən daha çox istifadə edirlər. Gənclərin nikotinə məruz qalması ciddi risklər yaradır. Elektron siqaretlərin yaratdığı nikotin asılılığı emosional pozğunluqlara səbəb ola bilər və beynin öyrənməyə nəzarət edən hissələrinə zərər verə bilər.

Ölkəmizdə istifadə yaşı 12-15 yaşadək düşən elektron siqaretin əsas aludəçiləri məktəbli uşaqlardır. Məktəb tinlərindən, dalanlarda, xəlvət küçələrdə hər məktəblinin əlində bir elektron siqaret, acgözlüklə sümürdüyünün siz də şahidi olmusunuz. Cinsiyyət fərqi olmadan, qız-oğlan qarışıq istifadə edilən elektron siqaretin onların orqanizminə vurduğu təhlükə barədə əksəriyyəti məlumatlı deyil.



## Sonsuzluq statistikasındakı payı

Elmi araşdırmalara görə, elektron siqaretlər kişilərdə sperma sayının azalmasına səbəb olur. Bu vəziyyət hamiləlik planlayan və ailə tərkibini artırmağı düşünən insanlara mənfi təsir göstərə bilər. Bundan əlavə, elektron siqaretlər yumurtanın keyfiyyətinə də təsir edir, dolayısı ilə siqaret çəkməyənlərə nisbətən 10 dəfə daha çox sonsuzluq riski verir. Bundan əlavə, qadınlarda erkən klimaks və vaxtından əvvəl doğuş riskini artırır.

Elektron siqaretdən istifadə zamanı qəbul edilən nikotin qadınların yumurtalıq hüceyrələrinə təsir edərək təbii yolla hamilə qalmağı çətinləşdirə bilər. Hamilə qaldıqdan sonra isə hamiləliyin pozulmasına, uşaqlıq və sidik kisəsi xərçənginə səbəb ola bilər. Adi siqaretdən heç bir fərqi olmayan elektron siqaretlər kişilərdə reproduktiv funksiyalara ciddi təsir göstərə bilər.

Hamiləlik dövründə elektron siqaret istifadəsi körpənin beyin inkişafına mənfi təsir göstərir və orqanlara qalıcı ziyan vurur. Eyni zamanda, hamiləlik dövründə çəkilən elektron siqaretlər körpənin ağciyərlərinin inkişafına mane ola bilər və doğuşdan sonra xəstəliklərə səbəb olur.





## DNT-ni dəyişmək gücü var

Elektron siqaretdən istifadə edən insanlarda koronar arteriya xəstəliyi, depressiya və infarkt ehtimalı yüksəkdir. İstifadə etməyənlərlə müqayisədə insult və ya infarkt kimi problemlər yarada bilər. Elektron siqaretlər qan damarlarının sərtləşməsinə səbəb ola bilər, oksigenlə zəngin qanın ürəyə və bədənin digər hissələrinə getməsinə mane olur. Tərkibindəki nikotin səbəbiylə ürək döyüntüsünü artıraraq infarkta zəmin hazırlayır.

Elektron siqaretlər, kimyəvi maddələr və hissəciklər səbəbindən astma və xroniki ağciyər xəstəliklərinə görə ağciyər iltihabına səbəb olur. Bu da xərçəng riskini artıraraq DNT zədələnməsinə səbəb ola bilər. Elektron siqaret buxarı da ağciyər mühitində immun hüceyrələrinə mənfi təsir göstərərək ağciyərin iltihabına səbəb ola bilər. Şimali Karolina Universitetində aparılan araşdırma nəticəsində məlum olub ki, elektron siqaretlərin tərkibindəki iki əsas inqrediyent (propilen qlikol və bitki qliserin) hüceyrələrə toksik təsir göstərir ki, bu da ağciyər xəstəliklərinə yol açır.

Araşdırmalar göstərir ki, elektron siqaretlər diş və diş ətinə də mənfi təsir göstərir. Bakteriya artımı, quruyan ağız, iltihablı diş ətləri, ümumi qıcıqlanma və bərpaolunmayan hüceyrə ölümü kimi problemlər gələcəkdə böyük xəstəliklərə səbəb ola bilər. 2018-ci ildə aparılan bir araşdırma göstərdi ki, elektron siqaretlərin aerozoluna məruz qalan dişlər, istifadə etməyənlərə nisbətən daha çox bakteriya əmələ gətirir. Bu bakteriyaların diş çürüməsi, ağızda yaralar və ya diş əti xəstəliyi ilə əlaqəli olduğu sübut edildi.

***Lalə Mehralı***



SON SƏHİFƏ
SƏS
3 iyul
2025-ci il

# Diplomlu, lakin işsiz gənclərin sayının artması...

*Sosioloq mühüm məqamlara aydınlıq gətirdi*



"İllərdir biz, Azərbaycan təhsil sisteminin - xüsusilə də orta məktəbdən sonrakı mərhələlərdə, yəni peşə məktəbləri, müxtəlif sənətlərlə bağlı ixtisaslaşmış təhsil ocaqları və ali məktəblərdə - müasir dövrün tələblərinə cavab vermədiyini, cəmiyyətin və dünyanın sürətli inkişafı ilə ayaqlaşmadığını bildiririk. Təəssüf ki, bu sahədəki boşluqlar gənclərin təhsildən və əmək bazarından düzgün şəkildə bəhrələnməsinə əngəl olur". Bu sözləri SİA-ya açıqlamasında sosioloq Aydın Xan Əbilov deyib. Onun sözlərinə görə, son illərdə isə bu problemlərə əlavə olaraq robotlaşma, avtomatlaşma, süni intellektin geniş tətbiqi, informasiya texnologiyalarının və iqtisadi modelin sürətlə dəyişməsi, kənd təsərrüfatı da daxil olmaqla bir çox sahədə texnologiyanın təsiri kimi faktorlar da əlavə olunub. Beləliklə, təhsil sistemi ilə real həyat arasındakı uçurum daha da böyüyüb. Bu da bir sıra sosial və iqtisadi çətinliklərin yaranmasına səbəb olur: "Həmişə bu fikrin tərəfdarı olmuşam ki, Azərbaycanda formalaşan təhsil kapitalı, yəni gənclərimizin potensialı xarici ölkələrə axıdılmamalıdır. Xüsusən də Türkiyə, Ukrayna, Rusiya, Gürcüstan və digər yaxın ölkələrdə fəaliyyət göstərən, səviyyəsi aşağı olan universitetlərə üz tutan gənclər təkcə akademik baxımdan yox, həm də mənəvi və milli dəyərlər baxımından zəifləyirlər. Bu gənclər zamanla dövlətçilik və millilik ruhundan uzaqlaşır, cəmiyyətin nəzarətindən kənarda qalaraq hansı istiqamətə yönələcəkləri qeyri-müəyyən olur.

Halbuki onlar ölkədə təhsil alsaydılar, həm daha səmərəli, həm də peşəkar mütəxəssislərə çevrilə bilərdilər. Onların bilik və bacarıqları cəmiyyətin inkişafı üçün faydalı ola bilərdi. Lakin gənclərimiz xaricə üz tutduqda, həm ailələri, həm də dövlət üçün əlavə maliyyə və mənəvi yük yaranır. Ən pisi isə onların gələcək taleyi və ideoloji yönü ilə bağlı narahatlıqdır. Bu problemlərin qarşısını almaq üçün kompleks yanaşma tələb olunur. İlk növbədə, ali məktəblərə qəbul prosesi daha şəffaf və əlçatan olmalıdır. Eyni zamanda, orta məktəblərin buraxılış imtahanlarının səviyyəsi yüksəldilməli, bu mərhələdə şagirdlərin real bilikləri ciddi şəkildə yoxlanmalıdır. Təhsil pillələri arasında uyğunluq yaradılmalı, orta təhsil ali təhsilə sağlam zəmin hazırlamalıdır.

Bölgələrdə yeni universitetlər, startap mərkəzləri və müasir təhsil infrastrukturunun yaradılması vacibdir. Bu həm bölgələrin inkişafına təkan verər, həm də Bakıya və xaricə olan gənc axınının qarşısını alar. Həmçinin,



ali məktəb məzunlarının işlə təmin olunması üçün dövlət strukturları və özəl sektor birgə əməkdaşlıq etməli, təhsil alan hər bir gənc gələcək karyerasına ümidlə baxmalıdır. Diplom yalnız kağız parçası deyil, gəncin sahib olduğu real bilik və bacarıqların göstəricisi olmalıdır. Bu səbəbdən ali təhsil müəssisələrinin fəaliyyətinə nəzarət gücləndirilməli, təhsil real həyatın tələblərinə uyğunlaşdırılmalıdır. Diplomlu, lakin işsiz gənclərin sayının artması isə sosial təhlükəyə çevrilməkdədir. Gənclərin öz peşəsində işləyə bilməməsi onların potensialını məhv edir və ölkənin resurslarının səmərəsiz istifadəsinə gətirib çıxarır.

Son dövrlərdə demoqrafik azalmanın və gənc işçi qüvvəsinin xaricə axınının artması bu məsələnin nə qədər ciddi olduğunu göstərir. Əgər bu tendensiya davam etsə və biz məsələyə biganə yanaşsaq, ölkənin sosial-iqtisadi inkişafı ciddi şəkildə ləngiyəcək. Bu baxımdan, bölgələrdə real iş yerlərinin yaradılması, peşə təhsilinin gücləndirilməsi və universitetlərin yalnız tədris müəssisəsi kimi deyil, həm də sosial və iqtisadi inkişaf mərkəzi kimi fəaliyyət göstərməsi son dərəcə vacibdir. İnsanlar yalnız Bakıya və xaricə üz tutmaq məcburiyyətində qalmamalıdır. Əgər biz bölgələrdə həm keyfiyyətli təhsil, həm də layiqli iş imkanları yarada bilsək, bu axının qarşısını almaq mümkündür.

Nəticə olaraq əsas fikir budur: təhsilə olan münasibət dəyişməlidir. Gənclərimiz diplom almaq üçün yox, real bilik və bacarıq əldə etmək, cəmiyyətə faydalı olmaq və öz gələcəyini qurmaq üçün oxumalıdır. Yalnız bu halda təhsil sistemi ölkənin inkişafına xidmət edə bilər".

***Ziya Hikmətoğlu***


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# "Liverpul" bu futbolçuya görə "Bavariya"ya rədd cavabı verdi



"Liverpul" futbolçusu Luis Diazla bağlı qərar qəbul edib. QOL.az xəbər verir ki, bu barədə Britaniya mətbuatı məlumat yayıb. İngiltərə təmsilçisi 28 yaşlı hücumçunu satmayacaq. "Bavariya"nın Luis Diaz üçün "Liverpul"a təklif göndərsə də, "mersisaydlılar" Münhen klubuna rədd cavabı veriblər. "Liverpul" "Bvariya"nın idman direktoruna klubun müzakirələrə girmək niyyətlərinin olmadığını bildirib.

Qeyd edək ki, L.Diaz 2024/25 mövsümündə Premyer Liqada 36 oyunda 13 qol vurub.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3000**